

Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 Noyabr 2021-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU-da Vətən müharibəsi dövründə medianın fəaliyyətinə dair kitablar təqdim olunub**
→Səh.4

**"Şuşa Elm Festivalı" layihəsinin qaliblərinin təltif olunma mərasimi keçirilib**
→Səh.8

**Əskişəhər Texniki Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalanıb**
→Səh.9

**"Vətən müharibəsində tarixi Zəfərin hüquqi, tarixi və iqtisadi müstəvidə təhlili" mövzusunda konfrans keçirilib**
→Səh.13

**"BDU Könüllüləri"nin təşkilatçılığı ilə Hacı Zeynalabdin Tağıyevə həsr olunmuş tədbir keçirilib**
→Səh.11

**"Rossotrudniçestvo" təşkilatının nümayəndə heyəti BDU-da olub**
→Səh.12

**"Tələbə Gənclər Təşkilatı qazandırır" adlı tədbir keçirib**
→Səh.16



**"İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri" kitabının təqdimat mərasimi keçirilib**
→Səh.3



**"Gənc istedadlar liseyi"nin şagirdləri Polad Həşimovun xatirəsini anıblar**
→Səh.8



**Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçə BDU-nun Fəxri doktoru adı verilib**
→Səh.9



**BDU-da Himayəçilər Şurasının növbəti iclası keçirilib**
→Səh.12



**BDU əməkdaşların III doza vaksinasiya olunublar**
→Səh.15



## BDU-da Zəfər Günü təntənə ilə qeyd olundu





***Noyabrın 5-də Bakı Dövlət Universitetində 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Şanlı zəfər gününə həsr olunmuş tədbiri açıq elan edən BDU-nun rektoru Elçin Babayev çıxışında möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli Sərəncamı ilə 8 noyabrın Azərbaycanda Zəfər Günü kimi təsis edilməsini ölkəmizin həyatında yeni mərhələnin, inkişafa, intibaha, aydın sabahlara aparan böyük yolun başlanğıcı olduğunu vurğulayıb. Qeyd edib ki, bu gün böyük qürur və fəxr hissi ilə söyləyirik ki, möhkəm təməlləri xalqımızın xilaskarı, Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan Respublikası möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu siyasəti, müdrik qərarları sayəsində qüdrətli bir dövlətə çevrildi. Qüdrətli dövlətimiz, müzəffər xalqımız tariximizin heç bir mərhələsində görünməyən uğura imza atdı. Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, mahir sərkərdəlik bacarığı, şəhidlərimizin canı, qazilərimizin qanı, xalqımızın ölkə rəhbərinin ətrafında dəmir yumruq kimi birləşməsi sayəsində ötən ilin 27 sentyabrından zəfər salnaməmizin ən şanlı, parlaq səhifələri yazıldı.

Sonra rektor BDU kollektivinin Vətən müharibəsində həm ön cəbhədə, həm də arxa cəbhədə, informasiya cəbhəsində fəal iştirak etməsindən bəhs edib, BDU-nun yüzlərlə məzun və tələbəsinin düşmənlə döyüşə atıldığını, 19 məzunun şəhidlik zirvəsinə ucaldığını vurğulayıb. Vətən müharibəsində şanlı qələbəmizdən sonra BDU-da həyata keçirilən akademik layihələr, ərazi bütövlüyünün təmin olunması uğrunda canını və qanını fəda edərək şəhidlik zirvəsinə yüksəlmiş oğul və qızlarımızın xatirəsinin əziz tutulması, onların qəhrəmanlığının tələbə gənclər arasında təbliği ilə bağlı Tədbirlər Planına müvafiq olaraq görülmüş çoxşaxəli tədbirlər haqqında məlumat verib.

Vətən müharibəsi iştirakçısı polkovnik Elşad Əbilov və baş leytenant Nazim Quliyev çıxış edərək 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın qətiyyəti, xalqımızın sarsılmaz birliyi və əsgərlərimizin qəhrəmanlığı sayəsində əldə etdiyimiz Zəfərə gedən yoldan, ordumuzun hərbi hazırlığından, əsgərlərimizin şücaətindən, döyüşlərdən böyük qürurla bəhs ediblər.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zəfər Günü ilə bağlı videoçarxı nümayiş etdirilib.

Tədbir BDU-nun Mədəniyyət Yaradıcılıq Mərkəzinin hazırladığı musiqili, ədəbi-bədii proqram ilə davam edib. Mərkəzin ansamblının vətənpərvərlik ruhunda ifa etdiyi rəngarəng kompozisiyalar coşqu ilə qarşılanıb. Tanınmış müğənnilər Elçin Cəfərov, Emil Bədəlov, Xasay Şıxıyev və Aşıq Ədalət Dəlidağlının ifaları tədbirə xüsusi rəng qatıb.

# 8 Noyabr - yeni dövrün başlanğıcı

Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə 8 noyabrın Azərbaycanda Zəfər Günü kimi təsis edilməsi ölkəmizin həyatında yeni mərhələnin, inkişafa, intibaha, aydın sabahlara aparan böyük yolun, yeni dövrün başlanğıcıdır. Birinci Qarabağ müharibəsindəki ərazi itkilərindən keçən müddət ərzində xalqımız hər an tarixi zəfərin arzusu ilə yaşayır, zəfər müjdəsini gözləyirdi. Bu gün böyük qürur və fəxr hissi ilə söyləyirik ki, möhkəm təməlləri xalqımızın xilaskarı, Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan Respublikası möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu siyasəti, müdrik qərarları sayəsində qüdrətli bir dövlətə çevrildi, qüdrətli dövlətimiz, müzəffər xalqımız tariximizin heç bir mərhələsində görünməyən uğura imza atdı. Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, mahir sərkərdəlik bacarığı, şəhidlərimizin canı, qazilərimizin qanı, xalqımızın ölkə rəhbərinin ətrafında dəmir yumruq kimi birləşməsi sayəsində ötən ilin 27 sentyabrından zəfər salnaməmizin ən şanlı, parlaq səhifələri yazıldı.

2020-ci il sentyabrın 27-də mənfur düşmənin növbəti hərbi təcavüzünə cavab olaraq Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə əks-hücum əməliyyatları başladı. Dünya hərb tarixinə parlaq hərflərlə yazılan, haqqında əsrlərlə danışılacaq 44 günlük Vətən müharibəsinin ilk anlarından Müzəffər Ali Baş Komandanımızın verdiyi müdrik və cəsarətli qərarlar sayəsində düşmənin müdafiə xətti yarıldı. Düşmən böyük itkilər verərək geri çəkilməyə məcbur oldu. Müzəffər Azərbaycan ordusu döyüşlərin başladığı ilk gündə Füzulidə, Cəbrayılda, Murov zirvəsində, sonrakı günlərdə isə Suqovuşanda, Hadrutda, Xocavənddə, Zəngilanda, Qubadlıda üçrəngli bayrağımızı ucaltdı. Noyabr ayının 8-də Prezident İlham Əliyev tərəfindən artıq mədəniyyət paytaxtımız elan edilmiş Şuşanın azad olunması ilə düşmən ağır məğlubiyyətə uğradı və onun kapitulyasiya aktını imzalamaqdan başqa bir çarəsi qalmadı. Bununla da Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü təmin olundu, BMT-nin qəbul etdiyi, illərlə kağız üzərində qalan qətnamələr Müzəffər Ali Baş Komandanımız və Müzəffər Ordumuz tərəfindən döyüş meydanında icra olundu, müharibə ölkəmizin parlaq qələbəsi ilə başa çatdı. Möhtərəm Prezidentimiz İlham Əliyev müqəddəs Ata vəsiyyətini şərəflə yerinə yetirdi, xalqımızın ən böyük taleyüklü məsələsini birdəfəlik həll etdi.




Cənab Prezidentimizin rəhbərliyi ilə 44 günlük müharibə yalnız döyüş meydanında getmədi, bu müddət ərzində dövlətimizin başçısı diplomatiya cəbhəsində də mübarizə apardı, ölkəmizə olan təzyiqlərə, təsirlərə qarşı özünün siyasi iradəsini, əzmkarlığını nümayiş etdirdi, Qarabağ münaqişəsinin yalnız Azərbaycan xalqının maraqları çərçivəsində həll oluna biləcəyini bütün dünyaya bəyan etdi. Cənab Prezidentimizin ardıcıl, məqsədyönlü siyasəti sayəsində qardaş Türkiyə Cümhuriyyəti başda olmaqla, dost və tərəfdaş ölkələrin siyasi və mənəvi dəstəyi Azərbayacanın diplomatik uğurlarını, siyasi mövqeyini daha da möhkəmləndirdi. Məhz bu hərbi-siyasi mübarizənin nəticəsində regionda yeni düzən, fərqli geostrateji şərait və yeni reallıqlar yarandı.

Eyni zamanda qeyd etmək vacibdir ki, 44 gün ərzində informasiya cəbhəsində də mübarizə aparan cənab Prezidentimiz xalqımızın haqlı mövqeyini bütün dünyaya çatdırdı. Dünyanın 30-dan çox aparıcı kütləvi informasiya vasitəsinin nümayəndələrinə verdiyi müsahibələrində ölkə başçısı ona ünvanlanan və bir çox hallarda qərəzli, təxribatçı məqsəd daşıyan suallara təmkinlə, səbirlə, yüksək intellektual məntiqlə cavab verdi, gətirdiyi əks arqumentlərlə, dəlil və sübutlarla Azərbaycanın haqlı mövqeyini məharətlə ifadə etdi.

Bu gün Vətən müharibəsindən qalib çıxan dövlətimiz regionda əbədi sülhü də qazanmaq üçün səylərini uğurla davam etdirir, özünün konstruktiv, ədalətli mövqeyini müxtəlif formatlı danışıqlar masasında və diplomatik gedişlərdə ən yüksək səviyyədə ifadə edir. Əminliklə söyləyirik ki, tarixi zəfərdən sonra qalib ölkə kimi Azərbaycanın bölgədə rolu və çəkisi, dünyada nüfuzu daha da artmış, ölkəmiz artıq sözün bütün mənalarında söz sahibinə çevrilmişdir. Artıq dünyanın güc mərkəzləri, siyasi çevrələr birmənalı şəkildə Azərbaycanla hesablaşır, onun qalib ölkə kimi danışıqlar masasında diqtə etdiyi şərtlərlə birmənalı olaraq razılaşırlar.

44 günlük Vətən müharibəsi günlərində olduğu kimi, tarixi zəfərdən sonra əldə edilmiş diplomatik uğurların, azad edilmiş ərazilərdə həyata keçirilən möhtəşəm layihələrin, aparılan bərpa-quruculuq işlərinin sayəsində bu günlər hər birimiz tarixi anlar yaşayırıq. Azərbaycanda demək olar elə bir gün yoxdur ki, hansısa əlamətdar bir hadisənin, tarixi bir məqamın şahidi olmayaq. Qələbədən sonra ölkəmiz hər gün daha da qüdrətlənir, hər gün tariximizə yeni ilklər yazılır. Bütün bunlar bizim hər birimizin qəlbini qürur və fərəh hissi ilə doldurur. Ötən ilin dekabr ayının 10-da Azadlıq meydanında keçirilən və tariximizə ilk Zəfər Paradı kimi düşən şanlı gün yaddaşımıza əbədi olaraq həkk olundu. Zəfər Paradı qalib Azərbaycanın qüdrətini, gücünü bir daha bütün dünyaya nümayiş etdirdi.

Tarixi zəfərdən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan diplomatiyasının uğurları, qələbələri davam etməkdədir. Bu sahədə əldə etdiyimiz ən böyük nailiyyət heç şübhəsiz Azərbaycanla qardaş Türkiyə arasında imzalanmış müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsidir. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün – Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir və müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin – Biz bir millət, iki dövlətik! – kəlamlarının qüdrəti ilə günbəgün inkişaf edən Azərbaycan Türkiyə münasibətləri bu sənədlə özünün ən ali zirvəsinə çatdı.

15 iyun 2021-ci ildə – müasir Azərbaycanın tarixində xüsusi önəm və rəmzi məna daşıyan Milli Qurtuluş Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanla Şuşada imzaladığı tarixi sənəd 44 günlük Vətən müharibəsindən qalib çıxan ölkəmizin mövqelərini daha da möhkəmləndirir, beynəlxalq aləmdə, diplomatiya cəhbəsində dövlətimizin manevr imkanlarını, nüfuzunu və çəkisini artırır. Şuşa Bəyannaməsinin ardınca Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin Birinci Üçtərəfli görüşünün keçirilməsi və görüşün nəticəsi kimi Bakı Bəyannaməsinin imzalanması da diplomatik uğurlarımızın davamı kimi olduqca əhəmiyyətlidir. Bütün bu uğurların nəticəsidir ki, 44 günlük müharibə dövründə erməni ordusundakı dünyada analoqu olmayan fərarilik artıq erməni cəmiyyətinə də sirayət edib. Əgər müharibə dövründə erməni quldur dəstələri silahlarını səngərdə ataraq döyüş meydanından qorxaqcasına qaçırdılarsa, bu gün erməni vətəndaşları ilk fürsətdə fərari kimi məğlub və cənab Prezidentimizin söylədiyi kimi Azərbaycanın dalana çevirdiyi Ermənistanı tərk etməyə hazırlaşırlar.

Bu günlər azad Qarabağımızda geniş vüsət alan böyük quruculuq işlərinə şahidlik edirik. Möhtərəm Prezidentimiz İlham Əliyevin misilsiz fəaliyyəti nəticəsində işğaldan azad edilmiş ərazilərdə yeni yollar salınır, körpülər tikilir, su elektrik stansiyaları istifadəyə verilir, Beynəlxalq Hava Limanlarının açılışı keçirilir, yeni yaşayış binalarının təməlləri qoyulur və saymaqla bitməyən nəhayətsiz, miqyası heç bir ölçüyə gəlməyən nəhəng layihələr gerçəkləşdirilir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tarixi zəfərdən sonra azad edilmiş ərazilərə səfərləri, Qarabağın bərpası layihəsinin uğurla həyata keçirilməsi zəfər ovqatlı xalqımızın gələcəyə olan inamını daha da artırır. Ağdam və Şuşa şəhərlərinin baş planlarının təsdiq edilməsi və ictimaiyyətə təqdimi, yeni şəhər, qəsəbə və kəndlərin, çoxmənzilli yaşayış məhəllələrinin təməlqoyma mərasimlərinin keçirilməsi keçmiş məcburi köçkünlərin öz doğma yurd-yuvalarına əbədi qayıdışını günbəgün yaxınlaşdırır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən Qarabağda erməni vandalizminə məruz qalan dini abidələrimizin, məscidlərimizin bərpası, yeni məscidlərin təməlinin qoyulması, möhtərəm cənab Prezidentimizin mədəniyyət paytaxtımız elan etdiyi Şuşada "Xarı bülbül" Musiqi Festivalının, Vaqif Poeziya Günlərinin keçirilməsi xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. Əminik ki, artıq bərpa edilmiş Vaqif Poeziya Günləri çağdaş ədəbiyyatımıza təkan verəcək, qələbə ruhlu əsərlərin, eyni zamanda müharibənin ağır nəticələrini, faciələrini əks etdirən bədii ədəbiyyat nümunələrinin yaranması üçün stimul rolunu oynayacaqdır.

Cəmi bir neçə gün əvvəl möhtərəm Prezidentimiz İlham Əliyevin və qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Qarabağda tariximizin yeni – parlaq səhifələri yazıldı. Möhtərəm Prezidentimizin misilsiz fəaliyyəti nəticəsində ən qısa vaxt ərzində işğaldan azad edilmiş Füzulidə ərsəyə gələn - dünya standartlarına uyğun Beynəlxlaq Hava Limanında ilk rəsmi qarşılanma mərasimi həyata keçirildi. Bununla Azərbaycan dövləti möhtərəm Prezidentimizin sayəsində daha bir ilkə imza atdı. Hər iki dövlət başçısı tərəfindən Füzuli Beynəlxalq Hava Limanının açılışı, Zəngəzur dəhlizinin əsasının qoyulması, Zəngilanda "Ağıllı kənd" layihəsinin icrası, yeni müəssisələrin təməlinin qoyulması, Prezidentlərin Zəngilanda birgə bəyanatı və saymaqla bitməyən misilsiz işlər zəfər ovqatlı müzəffər xalqımızı daha da ruhlandırır. Eyni zamanda bütün bunlar, dövlət başçımızın azad edilmiş ərazilərdən verdiyi mühüm mesajlar, səsləndirdiyi bəyanatlar xalqımızı, dostlarımızı hədsiz dərəcədə sevindirir, düşmənlərimizi isə məyus edir.

Prezident İlham Əliyev tərəfindən çox qısa zaman ərzində gerçəkləşdirilən bu layihələr həqiqətən də müasir dünyada heç bir siyasətçinin, dövlət başçısının edə bilməyəcəyi nəhayətsiz işlərdir. Bu günlərdə Qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilanın Ağalı kəndində mətbuata bəyanatında Prezident İlham Əliyevin Qarabağdakı quruculuq işlərindəki misilsiz xidmətlərinə yüksək dəyər verərək tarixi bir kəlam söylədi: "Bu, hər igidin, hər siyasətçinin işi deyil"! Bu gün hər bir azərbaycanlı ürəyimizcə olan bu tarixi kəlamın altından ürəklə öz imzasını atır, igid Prezidentimizlə qürur duyur, müdrik rəhbərimizə öz dəstəyini, sonsuz inam və etimadını hər an yüksək səslə bəyan edir.

Qürurverici haldır ki, azad edilmiş ərazilərdəki bərpa-quruculuq yalnız təmir-tikinti işlərini əhatə etmir. Cənab Prezidentimiz azad edilmiş ərazilərimizdə elmi, mədəni, mənəvi mühitin bərpası üçün də böyük səylər göstərir, xüsusilə tariximizin düzgün yazılması, toponimlərimizin bərpası üçün öz tapşırıq və tövsiyələrini verir. Bu ilin oktyabr ayının 10-da dövlət başçımız işğaldan azad edilmiş Xocavənddə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bu məsələyə xüsusi diqqət ayırdı: "Bilməyənlər üçün deyə bilərəm ki, Hayastan, əslində, Ermənistan deməkdir. Bilmirəm nəyə görə ingilis dilində, rus dilində Hayastana Armenia deyirlər, çünki ermənilər özlərini hay adlandırırlar, öz ölkəsini Armenia yox, Hayastan adlandırırlar. Bu tarixçilərin işidir. Mən bunun səbəbini bilirəm, amma yəqin ki, gərək Azərbaycan tarixçiləri də daha dolğun tədqiqatlar aparsınlar". Möhtərəm Prezidentimiz İlham Əliyevin bu kimi məsələlərə həssas münasibəti bizim hər birimizin qarşısında böyük vəzifələr qoyur.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı adlandırdığı, hər zaman məzunu olması ilə fəxr etdiyini ifadə edərək yüksək dəyər verdiyi Bakı Dövlət Universitetinin kollektivi də 44 günlük Vətən müharibəsi günlərində həm ön, həm də arxa cəbhədə fədakarlıq göstərmişdir. Vətən müharibəsində Universitetin 19 məzunu və tələbəsi şəhidlik zirvəsinə ucalmışdır. Müharibənin getdiyi taleyüklü günlərdə BDU kollektivi informasiya müharibəsinə də özünün töhfələrini vermişdir.

Artıq tarixə çevrilən Qarabağ münaqişəsinin baş verməsi səbəbləri, müharibə və postmüharibə dövründəki ictimai-siyasi proseslər, Azərbaycan dövlətinin apardığı diplomatik mübarizə və bu kimi digər məsələlər elmi araşdırmaların, tədqiqat işlərinin mövzusu kimi diqqəti cəlb edir, bu istiqamətdə ciddi elmi araşdırmaların aparılması qarşımıza şərt kimi qoyur. Bu mövzularda tədqiqat işlərinin aparılması, həqiqətlərin, reallıqların, hadisələrin əsl mahiyyətinin elmi müstəviyə gətirilməsi və dünya ictimaiyyətinə, xalqımıza, eləcə də gələcək nəsillərə dolğun, real faktlara, etibarlı mənbələrə söykənən məlumatlar əsasında təqdim olunması günümüzün ən vacib məsələləri sırasındadır. Bu mənada Azərbaycanın ilk və ən böyük ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin alimlərinin üzərinə daha böyük məsuliyyət düşür. Əminik ki, Bakı Dövlət Universitetinin professor-müəllim heyəti, gənc tədqiqatçılar bu prosesə özlərinin araşdırmaları, konfrans və simpoziumlardakı çıxışları ilə töhfələrini verəcək, nüfuzlu elmi jurnallarda bu barədə elmi məqalələr dərc edəcək, monoqrafiyalar, dərslik və dərs vəsaitləri hazırlayacaqlar.

Artıq bu istiqamətdə əldə etdiyimiz mühüm nəticələr də var. Müharibədən sonra Universitetin artıq ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmış iki akademik layihəsi – "İşğal altında olmuş Azərbaycan Respublikası ərazilərində məcburi köçkünlərin pozulmuş hüquqlarına dair Beynəlxalq Kompleks Hesabat" və "Vətən müharibəsi dövründə ölkə və xarici medianın fəaliyyətinin təhlili" layihələri uğurla həyata keçirilmişdir. Bundan əlavə Universitetin əməkdaşları, məzun və tələbələri mətbuat səhifələrində öz sanballı yazıları ilə çıxış edir, tarixi zəfərimizə həsr olunan kitablar ərsəyə gətirirlər.

Bu günlər dövlətimizin, xalqımızın həyatında yeni bir mərhələ başlayıb. Obrazlı ifadə etsək, bu dövr Azərbaycan tarixinin qızıl dövrüdür. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev dövlət müstəqilliyimizin bərpa olunmasının 30-cu ildönümü münasibətilə xalqa müraciətində bu barədə söyləmişdir: "Uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması – Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur. Rəşadətli ordumuz döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək cəmi 44 gündə torpaqlarımızı işğaldan qurtarmışdır. Azərbaycan xalqının apardığı Vətən müharibəsi Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratmışdır. Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır".

Qoy cənab Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin qızıl hərflərlə yazdığı yeni tariximiz uğurlu olsun, xalqımızın, dövlətimizin həyatında yeni dövrün başlanğıcı xeyirli olsun.

Allah bu günləri – parlaq qələbəmizi, tarixi Zəfərimizi bizə bəxş etmiş Müzəffər Ali Baş Komandanımızı, müzəffər ordumuzu, müzəffər xalqımızı qorusun.

Allah şəhidlərimizə rəhmət, qazilərimizə sağlamlıq nəsib etsin.

Tarixi zəfərimiz, parlaq qələbəmiz, şanlı bayramımız mübarək olsun.

Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır!

***Elçin Babayev,***
*Bakı Dövlət Universitetinin rektoru*

Azertag.az

---

# "İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri" kitabının təqdimat mərasimi keçirilib

***Noyabrın 4-də Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qafqaz xalqları tarixi" kafedrasının müdiri, tarix elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi İradə Hüseynovanın "İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri" kitabının təqdimat mərasimi keçirilib.***






Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev BDU-da həyata keçirilən akademik layihələrdən söz açıb, 44 günlük Vətən müharibəsinin elmi müstəvidə araşdırılmasının və təhlilinin əhəmiyyətini vurğulayıb. Rektor qeyd edib ki, xalqımızın tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən bu şanlı qələbənin əsasında cənab Prezidentin liderlik keyfiyyətlərindən irəli gələn sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə, eyni zamanda xarici siyasətdə uğurlar və xalq-iqtidar ordu birliyi dayanır. Vətən müharibəsi dövründə Ali Baş Komandan İlham Əliyev milli maraqları ifadə edən qətiyyətli siyasət yürütməklə özündə yüksək şəxsi keyfiyyətləri, milli dəyərləri və təcrübəli idarəetmə bacarığını birləşdirən lider olduğunu sübut etdi.

E.Babayev təqdim olunan kitabın həm də torpaqlarımızın azad olunması uğrunda aparılan müharizənin bir salnaməsi kimi müharibənin canlı mənzərəsini özündə əks etdirdiyini vurğulayıb.

Daha sonra kitabın redaktoru tarix elmləri doktoru Qasım Hacıyev, kitabın rəyçisi tarix elmləri doktoru Şikar Qasımov, professor İbrahim Zeynalov, BDU-nun Qafqaz xalqları kafedrasının doktorantları Əzim Heydərov, Sevda Şərifova, həmin kafedranın magistrantı Nəsrin Abdullayeva çıxış ediblər. Çıxışlarda Ali Baş Komandan İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması uğrunda diplomatik fəaliyyəti, həyata keçirdiyi ordu quruculuğu, Vətən müharibəsində ordumuzun uğurlu hərbi əməliyyatları, əsgərlərimizin qəhrəmanlıqları və s. haqqında bəhs olunub.

Kitabın müəllifi İradə Hüseynova "İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri" kitabının 44 gün davam edən və Azərbaycanın şanlı Qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsindən, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun əks-hücumları nəticəsində torpaqlarımızın işğaldan azad edilməsindən, Ermənistanın 30 illik işğalına son qoyulmasından bəhs etdiyini vurğulayıb.

Professor İradə Hüseynova kitabında oxucuların eyni zamanda, sovet dövründə azərbaycanlıların Ermənistandan deportasiyasına dair faktlarla tanış ola biləcəyinə diqqət çəkib. Müəllif kitabda işğaldan azad edilmiş ərazilərə dövlətimizin başçısının səfərlərindən, burada həyata keçirilən bərpa-quruculuq işlərindən də danışıb, Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Azərbaycan rəhbərliyinin həm hərbi, həm də diplomatik sahədə mühüm əhəmiyyət kəsb edən qələbə qazandığını bildirən tarixçi-alim 10 noyabr Bəyanatı ilə Ermənistanın kapitulyasiyasını tarixi ədalətin qələbəsi kimi dəyərləndirib. Kitabda, müharibənin başladığı ilk gündən qardaş Türkiyənin Azərbaycanın yanında olduğuna xüsusi diqqət çəkilib.

Qeyd edək ki, "İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri" kitabı tarixçi-alimlər, konfliktoloqlar, beynəlxalq münasibətlər və müxtəlif sahələrdə işləyən tədqiqatçılar, mütəxəssislər, ali məktəblərin bakalavr və magistratura pillələrində təhsil alan tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Müəllif bu dəyərli nəşrin ərsəyə gəlməsində Azərbaycan və rus dillərində 100-dən çox mənbədən istifadə edib.

---

# Jurnalistika fakültəsində qazi məzunlarla növbəti görüş keçirilib

***Noyabrın 1-də Bakı Dövlət Universiteti Jurnalistika fakültəsində məzun olan qazi və Vətən müharibəsi iştirakçıları ilə növbəti görüş keçirilib. Görüşün qonaqları-Vətən müharibəsi iştirakçıları ehtiyatda olan baş leytenant, jurnalist Pərviz Aslanov və fakültənin 2020-ci il məzunu Tağı Həsənov olub.***



Tədbiri giriş sözü ilə açan Jurnalistika fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru Vüqar Əliyev qonaqları görüş iştirakçılarına təqdim edərək, onlar haqqında geniş məlumat verib. Bildirib ki, 44 günlük Vətən müharibəsinin aktiv iştirakçıları olan məzunlarımız torpaqlarımızın azad olunmasında böyük şücaət göstərib.

Daha sonra söz Vətən müharibəsi iştirakçılarına verilib. Çıxış edən Pərviz Aslanov müharibə dönəmində keçdiyi döyüş yolundan, xüsusilə Şuşa döyüşlərində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz tərəfindən qazanılan zəfəri, eyni zamanda medianın fəaliyyətini, informasiya müharibəsində də əldə edilən uğurları diqqətə çatdırıb.

44 günlük Vətən müharibəsinin digər iştirakçısı Tağı Həsənov Füzuli, Cəbrayıl və Zəngilan istiqamətində gedən döyüşlərdən bəhs edib. Cəbrayılda şahidi olduğu qürurverici məqamları, Zəngilan rayonunun Vejnəli kəndində döyüş yoldaşları ilə birgə düşmən tərəfindən pusquya düşdüyü anları tədbir iştirakçıları ilə bölüşüb.

Qeyd edək ki, Pərviz Aslanov "Füzuli, Qubadlı, Şuşanın azad olunması" medalları, Tağı Həsənov isə "Füzuli, Cəbrayılın azad olunması" və "İgidliyə görə" medalları ilə təltif olunublar.

Tədbirin sonunda Jurnalistika fakültəsinin kafedra müdirləri, professorlar Cahangir Məmmədli, Həmid Vəliyev, fakültənin dekan müavini Sevinc Əliyeva Vətən müharibəsində iştirak edən cəsur qəhrəmanlarımıza dərin təşəkkürlərini bildirərək, onlara suallarını ünvanlayıblar.

Diskussiya formasında davam edən tədbir tələbələri maraqlandıran sualların cavablandırılması ilə başa çatıb.

# BDU-da Vətən müharibəsi dövründə medianın fəaliyyətinə dair kitablar təqdim olunub

***Noyabrın 3-də BDU-nun professor-müəllim heyəti və ölkəmizin nüfuzlu jurnalistlərinin iştirakı ilə "Vətən müharibəsi dövründə ölkə və xarici medianın fəaliyyətinin təhlili" layihəsi çərçivəsində nəşr edilmiş kitabların təqdimat mərasimi keçirilmişdir.***

Layihə çərçivəsində nəşr olunmuş "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri", "Vətən müharibəsi yerli və xarici mediada" və "Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışları" kitabları dövlət və ictimai xadimlər, millət vəkilləri, tanınmış jurnalistlər, müəllim və tələbələrin iştirak etdiyi təqdimat mərasimində ictimaiyyətə təqdim olunub.

***Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Giriş sözü ilə çıxış edən layihənin ideya müəllifi və rəhbəri, BDU-nun rektoru Elçin Babayev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində tarixi qələbəsindən söz açıb. BDU-da həyata keçirilən akademik layihələr haqqında məlumat verib. Qeyd edib ki, bu layihələrdən biri olan - "Vətən müharibəsi dövründə ölkə və xarici medianın fəaliyyətinin təhlili" layihəsinin əsas məqsədi Vətən müharibəsi dövründə Azərbaycan Respublikası Prezidentinin xarici KİV-ə müsahibələrinin Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında, informasiya müharibəsində oynadığı əvəzsiz rolunu öyrənmək, müharibə dövründə yerli və xarici mediada dərc olunan məqalələri, müsahibələri və s. araşdırmaq, beynəlxalq medianın baxışını və yerli medianın fəaliyyətini akademik səviyyədə qiymətləndirmək olub. Layihə əsasında nəşr olunan kitabların materiallarından tədris prosesində istifadə ediləcəkdir.




*Təqdimat mərasimində BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru Rafael Hüseynov, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Milli Məclisin üzvü Elşad Mirbəşiroğlu, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini Rafiq Həşimov, Jurnalistika fakültəsinin professorları Cahangir Məmmədli, Qulu Məhərrəmli, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, Jurnalistika fakültəsinin dosenti Aynur Nəsirova çıxış edərək, layihə çərçivəsində nəşr olunan kitabların gələcəkdə tədqiqatçılar üçün qiymətli və etibarlı mənbə rolunu oynayacağına əminliklərini ifadə ediblər.*

Qeyd edək ki, "Vətən müharibəsi dövründə ölkə və xarici medianın fəaliyyətinin təhlili" layihəsi üzrə İşçi qrupu 5 istiqamət üzrə - Azərbaycan Respublikasının Prezidentinin xarici KİV-ə müsahibələri; Vətən müharibəsi beynəlxalq mediada; Vətən müharibəsi ölkə mediasında; müharibə dövründə Ermənistan mediası; Vətən müharibəsi dövründə BDU-nun professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışları istiqamətlərində araşdırma aparmış və layihə çərçivəsində 3 kitab nəşr olunmuşdur.



"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri" kitabında Vətən müharibəsinin getdiyi gərgin günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici KİV nümayəndələrinə verdiyi parlaq müsahibələri, bu müsahibələrin informasiya cəbhəsində, Qarabağ həqiqətlərinin, Azərbaycanın haqq mübarizəsinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rolu təhlil edilmişdir.

"Vətən müharibəsi yerli və xarici mediada" kitabında Vətən müharibəsi dövründə ölkə KİV-nin fəaliyyəti, xarici media orqanlarında, eləcə də Ermənistan mətbuatında dərc olunan məqalələr, müsahibələr, reportajlar, analitik yazılar və s. araşdırılmış, beynəlxalq medianın müharibəyə baxışına nəzər salınmış, fərqli yanaşmalar sistemləşdirilmiş, ümumiləşdirmələr aparılaraq təqdim olunmuşdur.

"Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışları" kitabında isə 44 günlük Vətən müharibəsi dövründə BDU-nun professor-müəllim heyəti və tələbələrinin kütləvi informasiya vasitələrində yayımlanmış yazılarının bir hissəsi toplanmışdır.

# Təqdimat mərasimində çıxışlar (ixtisarla)

**_Elçin Babayev,_**
*BDU-nun rektoru*

Hörmətli qonaqlar!
Hörmətli həmkarlar!
Hörmətli tədbir iştirakçıları!

Hər birinizi BDU-da salamlayır, "Vətən müharibəsi dövründə yerli və xarici medianın fəaqliyyətinin təhlili" layihəsi çərçivəsində nəşr olunmuş kitabların təqdimat mərasiminə gəldiyiniz üçün təşəkkürümüzü bildiririk.



Ötən il müzəffər sərkərdəmiz, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun parlaq Qələbəsindən sonra BDU-da iki akademik layihəyə başladıq. BDU-nun nüfuzlu professor-müəllim heyətinin, ölkəmizin nüfuzlu alimlərinin iştirak etdiyi hər iki layihə uğurla yerinə yetirildi. Bu layihələrdən birincisi - "Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarına dair kompleks beynəlxalq hesabat" Azərbaycan və ingilis dillərində nəşr olunmuşdur. 2021-ci ilin 12 oktyabr tarixində bu zalda dövlət və hökumət nümayəndələrinin, ictimai xadimlərin və professor-müəllim heyəti və tələbələrin iştirak etdiyi təqdimat mərasimində ictimaiyyətə təqdim edilmişdir. Beynəlxalq hesabatda təqribən 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən Azərbaycan Respublikası ərazilərinin işğalı nəticəsində həmin ərazilərdən olan məcburi köçkünlərin pozulmuş hüquqlarının, daha sonra dəymiş ziyanın əhatə dairəsinin və istiqamətlərinin müəyyən edilməsi, beynəlxalq təcrübəni öyrənməklə pozulmuş hüquqların bərpası, nəhayət, dəymiş ziyanın Ermənistan tərəfindən ödənilməsi üçün beynəlxalq-hüquqi mexanizmlər təhlil edilmişdir. Hesab edirik ki, hesabat olduqca aktual bir məsələnin beynəlxalq-hüquqi müstəvidə həll olunmasına yönəlib və məsələnin gələcəkdə müsbət həll olunmasına da öz töhfəsini verəcəkdir.

İkinci akademik layihəmiz isə "Vətən müharibəsi dövründə yerli və xarici medianın fəaliyyətinin təhlili" layihəsidir. Biz ölkəmizin jurnalistika sahəsində ən böyük elmi potensialı olan ali məktəbi kimi, hesab etdik ki, Vətən müharibəsi dövründə Azərbaycan Respublikası Prezidentinin xarici KİV-ə müsahibələrinin Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında, informasiya müharibəsində oynadığı əvəzsiz rolunu öyrənmək, müharibə dövründə yerli və xarici mediada dərc olunan məqalələri, müsahibələri və s. araşdırmaq, beynəlxalq medianın baxışını və yerli medianın fəaliyyətini akademik səviyyədə qiymətləndirərək, bu materiallardan tədris prosesində istifadə etmək zəruridir. Ona görə də Universitetimizin nüfuzlu alimlərini və ölkəmizin tanınmış jurnalistlərini bu layihəyə cəlb etdik.

Layihə uğurla başa çatdı və layihə çərçivəsində gördüyünüz bu üç nəşr ərsəyə gətirildi.

Birinci kitabda - "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri" kitabında Vətən müharibəsinin getdiyi gərgin günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici media orqanlarının nümayəndələrinə verdiyi parlaq müsahibələri, bu müsahibələrin informasiya cəbhəsində, Qarabağ həqiqətlərinin, Azərbaycanın haqq mübarizəsinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rolu təhlil edilmişdir.

Bilirik ki, ölkə başçısının Vətən müharibəsi dövründə xarici mətbuata verdiyi 30-a yaxın müsahibə informasiya savaşında, haqq səsimizin dünyaya çatdırılmasında müstəsna rol oynadı. Dövlət başçısının yüksək intellektini, dərin politoloji biliyini, parlaq diplomatik məharətini nümayiş etdirən müsahibələr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünya ictimaiyyətinə türk, rus və ingilis dillərində mövcud Azərbaycan gerçəkliyi, Qarabağ probleminin mahiyyəti, erməni işğalının miqyası, problemin həlli ilə bağlı diplomatik danışıqların tam effektsizliyi, əkshücum əməliyyatlarının zəruriliyi, ölkəmizə qarşı informasiya möhtəkirliyi və s. barədə qiymətli məlumatlar vermişdir. Mənfur qonşularımızın Qarabağ problemi ətrafına çəkdiyi yalanlar səddini dağıtmış, Ermənistanı və onu himayə edən şər qüvvələri bütün dünyanın gözü qarşısında ifşa etmişdir.

*(ardı 3-cü səhifədə)*

Bu kitabda cənab Prezidentin həmin parlaq müsahibələri jurnalistika aspektindən təhlil edilmiş, ölkə başçısının müsahibələri və bu müsahibələrin təhlili BDU Elmi Şurasının qərarı ilə dərs vəsaiti kimi təsdiq edilmişdir. İnanırıq ki, bu dərs vəsaiti tədris prosesində geniş istifadə olunacaq, jurnalistika, tarix, beynəlxalq münasibətlər və digər əlaqəli ixtisaslar üzrə təhsil alan tələbələr üçün qiymətli mənbə olacaqdır.

"Vətən müharibəsi yerli və xarici mediada" kitabında Vətən müharibəsi dövründə ölkə KİV-nin fəaliyyəti, xarici media orqanlarında, eləcə də Ermənistan mətbuatında dərc olunan məqalələr, müsahibələr, reportajlar, analitik yazılar və s. araşdırılmış, beynəlxalq medianın müharibəyə baxışına nəzər salınmış, fərqli yanaşmalar sistemləşdirilmiş, ümumiləşdirmələr aparılaraq təqdim olunmuşdur.

"Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışları" kitabında isə 44 günlük Vətən müharibəsi dövründə BDU-nun professor-müəllim heyəti və tələbələrinin kütləvi informasiya vasitələrində əks olunmuş məqalələri yer alıb.

Bir daha layihədə iştirak edən, təqdim olunan kitabların ərsəyə gəlməsində əməyi olan bütün alimlərə, işçi qrupunun rəhbərlərinə, tanınmış jurnalistlərimizə təşəkkür edirik.



***Vüqar Əliyev,***
*Jurnalistika fakültəsinin dekanı*

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verildi. Bu qərar 30 ildir sülh və danışıqlar yolu ilə torpaqlarının bir gün geri qaytarılacağını ümidlə gözləyən xalqın bir bütün olaraq düşmənə bu dəfə tam və birdəfəlik cavab vermək əzminin nümayişi idi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də bildirdiyi kimi, "Dəmir yumruq" əməliyyatında başlıca məqsəd məhz, tarixi və əzəli torpağımız olan Qarabağı işğaldan azad etmək və erməni faşizmini məhv etmək idi.

44 günlük Vətən müharibəsi başladığı gündən etibarən, Azərbaycanın flaqman ali məktəbi, Xalq Cümhuriyyətinin yadigarı olan BDU bütün potensialı və gücü ilə Prezidentimizin, ordumuzun və xalqımızın yanında oldu, bunu özünə borc bildi. Həmin dövrdə BDU bir sıra əhəmiyyətli layihələrə imza atdı, universitetin professor-müəlim heyəti arxa cəbhədə üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışdılar. Bildiyiniz kimi, müharibənin gedişatı yalnız hərbi sahədə zəfərimizlə deyil, eyni zamanda, bizə qarşı düşmənin artıq neçə on illərdir ki, beynəlxalq havadarları və diasporasının dəstəyi ilə aparmış olduğu informasiya müharibəsində də üstünlüyümüzlə yadda qaldı. Cənab Prezident İlham Əliyevin Qarabağ savaşı başlanandan beynəlxalq media qurumlarına, xüsusən nüfuzlu telekanallara və xəbər agentliklərinə verdiyi müsahibələr Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, erməni yalanlarının, təxribatlarının ifşası baxımından olduqca böyük əhəmiyyət daşıdı. Azərbaycan Prezidenti çoxsaylı və geniş açıqlamalarında dünya birliyinin regionda baş verənlərlə bağlı suallarını həssaslıqla, böyük təmkin və səbir nümayiş etdirərək cavablandırır, beynəlxalq auditoriyaya Qarabağ həqiqətlərini ən yüksək səviyyədə dilə gətir, çatdırırdı.

Məhz bu məqamlardan irəli gələrək, BDU-da ötən ilin sonunda Vətən müharibəsi dövründə yerli və xarici medianın fəaliyyətini təhlil etmək, müvafiq analitik tədqiqatlar aparmaq məqsədilə işçi qrupu yaradıldı. İdeya müəllifi BDU-nun rektoru Elçin Babayevin rəhbərliyi altında həyata keçirilən bu layihə Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi uğrunda 44 gün davam edən və ordumuzun şanlı qələbəsi ilə nəticələnən Vətən müharibəsi dövründə media və informasiya müharibəsi ilə bağlı bir çox məsələlərin tədqiqinə həsr olunmuşdur.

Layihənin işçi qrupuna BDU Jurnalistika fakültəsinin tanınmış alimləri ilə yanaşı, ölkənin bir sıra nüfuzlu media mütəxəssisləri, beynəlxalq jurnalistika tədqiqatçıları, habelə gənc araşdırmaçılar, doktorant və magistrantlar daxil edildi.

İşçi qrupun qarşısında Azərbaycan Respublikası Prezidentinin xarici KİV-ə müsahibələri, bu müsahibələrin Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında, informasiya müharibəsində oynadığı əvəzolunmaz rol, Vətən müharibəsinin beynəlxalq mediada işıqlandırılması, beynəlxalq jurnalist təşkilatlarının mövqeyi, Vətən müharibəsində ölkə mediasının fəaliyyəti, BDU əməkdaşlarının Vətən müharibəsi dövründə ölkə mediasında çıxışları və s. istiqamətdə təhlil aparılması, müvafiq analitik hesabat hazırlanması və nəticə olaraq kitablar şəklində təqdim olunması vəzifəsi qoyulmuşdur. Artıq layihə çərçivəsində işçi qrupun fəaliyyəti yekunlaşmış, işin nəticəsi olaraq 3 kitab ərsəyə gətirilmişdir:

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri;
2. Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışları;
3. Vətən müharibəsi yerli və xarici mediada.

Analitik hesabatlar hazırlanarkən jurnalistikanın elmi prinsiplərinə, beynəlxalq jurnalistika təşkilatlarının təcrübəsinə, beynəlxalq jurnalistikanın prinsip və normalarına, həmçinin beynəlxalq təşkilatların (UNESCO, ATƏT, AŞPA) jurnalistin peşə fəaliyyəti ilə bağlı qəbul etdikləri tövsiyə xarakterli sənədlərə də istinad edilmişdir.

Vətən müharibəsi heç şübhəsiz ki, Azərbaycan tarixinin ən parlaq səhifələrindəndir. Bu barədə hələ çox araşdırmalar aparılacaq, çox söz deyiləcək.

İnanırıq ki, təqdim edilən bu kitablar Vətən müharibəsinin əhəmiyyətini və nəticələrini gələcəkdə tədqiq edəcək araşdırmaçı və mütəxəssislər üçün ciddi mənbələr olacaq.

Əminliyimizi bildirmək istərdik ki, müzəffər və qalib Ali Baş Komandanın ətrafında birləşən Azərbaycan xalqı tək ruh, tək can, tək ürək düşmənin başına endirilən "dəmir yumruq" olaraq bundan sonra vətənimizin ömür kitabına yalnız qalibiyyət, hürriyyət və haqqaniyyət misraları həkk etdirəcək.

Hər birinizə fəaliyyətinizdə uğurlar diləyir, kitabda zəhməti keçən hər kəsə öz təşəkkürümü bildirir və qarşıdan gələn Qələbə bayramı münasibəti ilə ürəkdən təbrik edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.



***Rafael Hüseynov,***
*Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru*

Hörmətli cənab rektor, dəyərli qonaqlar, əziz professor-müəllim və tələbə heyəti, xanımlar və cənablar! İnsanların bayramlara ehtiyacı var. Ən qədim zamanlardan bəri dünyanın dörd bucağında bəşər övladı bayramlar yaradıb. Bayramların səmiyyətin bir zümrəsinə, bütöv cəmiyyətə layiq olanları olub. Amma elə bayramlar da var ki, bütün insanlara aid deyil və o bayramlar əbədi bayramlardır. Bu bayramların zirvəsində dayanan kitabın bayramıdır. Kitab insanın əbədi yol yoldaşıdır və hər yeni kitabın dünyaya gəlişi, insanlara çatışı əlbəttə ki, bayramdır. Amma bu gün kitabların mənası, siqləti əlbəttə ki, daha yüksəkdir. Çünki bu kitablar Azərbaycan xalqının bir millət olaraq, bir yurd olaraq tarixində əbədi qalacaq ən böyük bayrama, zəfərimizə həsr edilib. Bir millətin var olduğu müddətcə qazana biləcəyi sərvət onun istiqlalıdır, dövlət müstəqilliyidir. 1918-ci ilin mayında Azərbaycan dövlət müstəqilliyini bildirən İstiqlal Bəyannaməsini elan etdi və Azərbaycan bir müstəqil dövlət olaraq yaşamağa başladı. Amma nə acı ki, bu istiqlalın ömrü 23 ay çəkdi. Bu istiqlalı quranlar böyük dövlət adamları, siyasətçilər, yüksək savadlı şəxsiyyətlər idi: Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, H.Ağayev, F.Xoyski, N.Yusifbəyli və digər böyük şəxsiyyətlər. Lakin onların hamısı bir yerdə Azərbaycanın istiqlalını qurdular və 23 ay ərzində qoruyub saxlaya bildilər. Bu istiqlalın biz 70 il həsrətin çəkdik. 1991-ci ilin 18 oktyabrında Azərbaycanın Dövlət Müstəqilliyi haqqında konstitusiya aktı elan etdik. Tarixin açdığı yeni bir səhifədə Azərbaycan yenidən tarixin çox burulğanlı bir dövründə öz müstəqilliyini bərpa etdi. Amma tarixin acı kinayəsiylə yenə 1993-cü ildə 2 yaşına çatmadan müstəqilliyimizi itirə bilərdik. Bu tarix səhnəsində böyük azərbaycanlı, dövlət adamı Heydər Əliyev göründü. Azərbaycanın üçrəngli bayrağını ucalara qaldırdı. Azərbaycanın istiqlalını 5 yaşına, 10 yaşına çatdırdı. 20-ci əsrdən 21-ci əsrə keçid aldıq və o istiqlalı daha sonrakı illərdə yaşada biləcək çox inamlı bir şəxsiyyətə, qüdrətli bir şəxsiyyətə təhvil verdik. Biz bərpa olunmuş müstəqilliyimizin 30-cu ilini başa vurduq və onun 31-ci ilini yaşayırıq. Bu istiqlalın, bu dövlət müstəqilliyinin yaşının üstünə gələn hər yeni il onun daha dönüşsüz olmasının rəmzidir. Bu böyük qurucular, istiqlalımızın təməlini qoyanlar hamısı bir yerdə o istiqlalı 2 ilə yaxın müddətdə saxlaya bilmişdilər. Dövlət müstəqilliyimiz bu gün bərpadan sonra artıq 31-ci ilini yaşayır. Bunun üçün hər şeydən əvvəl və hər kəsdən əvvəl iki böyük şəxsiyyətə, unudulmaz Ulu öndər Heydər Əliyevə və Azərbaycan dövlətini çətin yolda inamla irəlidədən Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. Onlar ikisi də qurucu, yaradıcı şəxsiyyətdirlər və bu gün də İlham Əliyev quruculuğunu davam etdirir. Dövlətə rəhbərlik edən hər kəs üçün quruculuq, yaratmaq, ölkənin abadlığı, insanların firavanlığı üçün çalışmaq bir fəxrdir. Uzaq zamanlar içərisində Azərbaycan dövlətinə kim rəhbərlik edəcəksə, onlar da quracaqlar, tikəcəklər və Heydər Əliyevin qoyduğu nə qədər yadigarlar qalıb. Prezident İlham Əliyev bu günə kimi Azərbaycan dövlətinə başçılıq etdiyi illərdə nə qədər qurub, tikib, yaradıb və bir o qədər quracaq, tikəcək, yaradacaq. Amma bütün bu quruculuqların zirvəsində dayanan həmin o dövlət müstəqilliyimizi, istiqlalımızı o mərtəbəyə gətirib çatdırmaqdır. Bu zəfərin, bu qələbənin fəlsəfəsi kitablarda açıqlanmalıdır. Bu zəfər haqqında həmişə düşünmək lazımdır. Nədir bu zəfərin böyük mənası? Məgər elə 44 günlük savaşın içinə sığan həqiqətdirmi bu? Yoxsa bunun miqyası, dərinliyi, tarixi daha mı uzaqlara gedir? Əlbəttə ki, tarixin daha uzaqlarına gedir və Vətən müharibəsində qazandığımız bu qələbə əslində uzun bir yolun bəhrəsidir. 44 gün sadəcə nəticə və yekun idi. Bunun arxasında bir yol var. O yolu düşünmədən bu zəfərin böyük mənasını dərk edə bilmərik. Yenə tarixin acı kinayəsində 1918-ci ildə istiqlalımız elan edildikdə bütöv Azərbaycanın dövlət müstəqillik istiqlalı deyildi. Heç biz Bakıya belə gələ bilmirdik. Bakı yalnız 1918-ci il sentyabr ayında Qafqaz İslam Ordusu və Azərbaycan əsgərinin səyləri nəticəsində azad olundu. Ona görə Azərbaycanın ilk hökuməti Gəncədə yerləşmişdi. Qarabağda nə qədər döyüşlər gedirdi. 1991-ci ilin 18 oktyabrında müstəqilliyimizi elan etdikdə və sonra bu müstəqilliyin içərisində yeni zamanda yaşayanda bu müstəqillik bütöv müstəqillik deyildi. Torpaqlarımızın 20% -i 90-ci illərdə, 2000-ci illərdə işğal altındaydısa, o torpaqlarda Azərbaycan bayrağı yüksəlmirdisə, demək, bu müstəqillik, bu istiqlal bütöv deyildi. Ali Baş Komandanımızın, bu zəfərin altında imzası olan böyük şəxsiyyətin qazandığının ən ali mənası ondan ibarətdir ki, məhz bu zəfərdən sonra Azərbaycanın dövlət müstəqilliyi bütövləşdi və var olduğumuz müddətdə ilk dəfə olaraq biz bütöv dövlətimizin, ərazimizin müstəqilliyini fəxrlə qeyd etdik. Ulu öndərdən bizə vacib bir fikir yadigar qaldı. Fəxrlə, ürəyinin bütün genişliyi ilə söyləyirdi ki, mən azərbaycanlı olmağımla fəxr edirəm. Böyük sözlərdir. Amma o sözlərin həqiqəti yalnız 2020-ci ilin noyabrın 8-dən sonra artıq bütün əzəmətiylə səslənir. İndi dünyanın istənilən güşəsində olan azərbaycanlının içərisindəki o ləyaqət hissi dövlətin qazandığı zəfər nəticəsində hiss olunur. Bu zəfərdən sonra azərbaycanlı dünyanın hər nöqtəsində daha başıucadır, daha alnıaçıqdır. Yəni bu zəfər yalnız Azərbaycan Respublikası içərisində olan insanların sevinci deyil, dünyanın harasında azərbaycanlı varsa, o zəfərdən ona da pay düşür. 44 günlük zəfər prezident İlham Əliyevin gəldiyi uzun bir yolun bəhrəsidir. Azərbaycan bu müharibədə çox məkrli bir düşmənlə üzbəüz idi.

44 günlük savaş boyu cəbhə bölgəsində erməninin ayrı-ayrı nöqtələrdə təpəsinə mərmilər dəyirdi, dronların atəşləri açılırdı. Özlərinin gözləmədiyi halda məhv olurdular. Bunların hamısının arxasında göydə baxan gözlər dururdu. Mükəmməl bir ordu dururdu. Bu ordu əlbəttə ki, onun ağıllı rəhbəri sayəsində böyük zəfərlərə çıxdı. Amma Azərbaycan elə bir düşmənlə üzə üz idi, bu düşmənin arxasında elə qüvvələr dayanmışdı ki, bir orduyla bunun öhdəsindən gəlmək mümkün deyildi.

Mütləq ikinci orduya ehtiyac var idi. Və bu ikinci ordu Prezident İlham Əliyevin özü idi. Bu kitablardan biri prezident İlham Əliyev necə ordu idi o həqiqəti göstərir. Jurnalistlər, dünyanın müxtəlif informasiya agentliklərinin təmsilçiləri, televiziyaların müxbirləri suallar verirdilər. Heç də həmişə o sualları verənlər jurnalistlər deyildi. Heç də həmişə bir jurnalistin, bir informasiya agentliyinin dilə gətirdiyi və cavabını tapmaqda maraqlı olduğu suallar deyildi. Bizlər və burda oturanların böyük əksəriyyəti mətbuatla bağlıdırlar. Müsahibə nədir, intervyunun hansı texnologiyaları var, bilirik. Mən yerli mətbuatda uzun illər çalışmışam. 10 il müddətində "Amerikanın səsi", Azadlıq radiolarında Azərbaycan redaksiyasının xüsusi müxbiri olmuşam. İngilis, rus, fars redaksiyalarında ən müxtəlif müsahibələr, reportajlar hazırlamışam. Bu texnologiyaları biz yaxşı bilirik. O sualların arxasında dayananların bir çoxu dünyanın böyük siyasətləriylə ayrı-ayrı dövlətlər idi. O cavablar bir prezidentin bir jurnalistə verdiyi cavablar deyildi. Onlar dünyadakı cərəyan edən siyasətlərə, özləri pərdə arxasında dayananlara bəyanatlar idi. Onların iddiaları əks iddialar idi. Yəni bizə qarşı qaldırılan iddialara, Azərbaycana qarşı sürülən ittihamlara cavab idi. Həmin o müsahibələr içərisində Prezident İlham Əliyevin böyük istedadı, diplomatik gücü, əzmi göründü. Qısa bir anın içərisində dərhal o, qarşısındakının arxasında dayanan siyasətləri ittiham edəndən ittiham olunana döndərə bilirdi. 2001-ci ildə biz Avropa Şurasının Parlament Assambleyasında fəaliyyətə başladıq və orda bizim nümayəndə heyətimizin ilk rəhbəri cənab İlham Əliyev idi.

Mən dönə-dönə yazılarımda da, müxtəlif beynəlxalq kürsülərdəki çıxışlarımda da heç vaxt demirdim ki, Ermənistan Azərbaycanın 20% ərazilərini təkbaşına işğal edib və 1 milyondan artıq insanlarımızı yerlərindən didərgin salıb. Həmişə deyirdim ki, bunu Ermənistan və onun arxasında dayanan qüvvələr edib. Çünki bizim üçün kiçiklik olardı deyək ki, balaca bir dövlət Azərbaycanın torpaqlarını işğal edib. 44 gün illərlə davam edən açıq və pərdə arxası savaşın davamı idi. Bu savaşda Azərbaycan əlbəttə ki, müzəffər ordusuyla qələbə qazandı. O ordu da, Ali Baş Komandanın əsəridir. O, çox uzaqlara baxan, çox genişləri öncədən görən bir lider kimi hər şeyi hesablayırdı. Ona görə inamla deyirdi ki, mən nəyi nə zaman etməyi özüm yaxşı bilirəm. Azərbaycanı kosmik dövlətə çevirmək yolunda səylər göstərirdi.

Biz də bu günkü qələbəni bizə qazandıran Ali Baş komandanımız başda olmaqla bütün xalqımızı təbrik edirəm




*Əhməd İsmayılov,*
*Medianın İnkişafı Agentliyinin İcraçı direktoru*

Çox hörmətli qonaqlar!
Çox hörmətli rektor!
Professor və müəllim heyyəti, tələbələr.

Medianın İnkişafı Agentliyi olaraq biz bu tədbirə dəvət aldıq və çox sevindik. Ötən ildə 44 günlük zəfərdə Azərbaycan mediasının nail olduğu nailiyyətlər birbaşa möhtərəm cənab Prezidentin adı ilə bağlı idi. Çünki həmin dövrdə möhtərəm cənab Prezidentin media blokadasını necə yarıb və bizim mediamıza bır sıra üsul və vasitələrlə sistemli şəkildə dünya mediasına çıxmağı ilə öz məğrurluğunu göstərmişdir. Biz kitabların birinə nəzər saldıqda məhz cənab Prezidentin son çıxışlarının, mediaya verdiyi müsahibələrin orda əksini tapmağını gördük və çox sevindik. Çünki biz düşündük ki, bu həm bizim mediamıza, həm də Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinə böyük bir töhfə olacaqdır.

Bu bir şərəfdir, bu bir salnamədir. Cənab Prezidentin yazdığı bu salnamə bizim media tərəfindən məhz cəmiyyətə, dünya cəmiyyətinə çatdırılmalı idi. Kitabların digərlərinə nəzər salanda ümumiyyətlə, Azərbaycan mediasında 44 günlük müharibə dövründə bir sıra məlumatların əksini, onların şəkillərini gördük. Bu da böyük bir tarixdir. Bu tarixin əks olunması bizim üçün bir fəxrdir. Bu bizim mediamızın şanını ifadə edir.

Düşünürük ki, belə bir kitabın ərsəyə gəlməsi bizim üçün böyük bir hadisədir və bu münasibətlə də sizləri təbrik edirəm. Bakı Dövlət Universitetinin professor və müəllim heyətinin çıxışlarını, həmin dövrdə açıqlamalarının əks olunduğu həmin vəsaiti gördük və bu bizə xoş təsir bağışladı. Çünki Bakı Dövlət Universiteti bütün kollektivi ilə, bütün gücü ilə 44 günlük müharibədə cəmiyyətimizi, ictimaiyyətimizi maarifləndirmək, dəstək və istiqamət göstərmək kimi halları müşahidə etdik.

Biz düşünürük ki, Medianın İnkişafı Agentliyi olaraq Bakı Dövlət Universiteti ilə gələn ildən çoxlu layihələrə başlayacağıq. Həmin layihələr çərçivəsində məhz bu kitablar da elə bizim üçün xüsusi önəmə çevriləcək. İndidən demək istərdik ki, belə bir layihəmiz var. Media Fabrika layihəsi. Biz bu layihəni qısa bir zamanda Elçin müəllimə təqdim edəcəyik. Düşünürük ki, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi ilə laboratoriyanı istifadə etməklə belə bir layihəni gələn ildən ərsəyə gətirmiş ola bilərik. Həmin layihənin geniş təqdimatı ilə əlaqədar olaraq cəmiyyətimizə ətraflı məlumatlar veriləcəkdir. Bu bizim əməkdaşlıq, məhz bu zəfər salnaməsini mediamızın vasitəsi ilə çatdırılması prosesi bundan sonra da inkişaf etdiriləcək.

Daha peşəkar formada Azərbaycan cəmiyyətinə, dünya ictimaiyyətinə çatdırılacaq. Elçin müəllim sizi təbrik edirik! Biz əminik ki, bu vəsaitlər gələcəkdə bizim jurnalistikaya gəlmək istəyən tələbələrin stolüstü kitablarına çevriləcəkdir.

Bir daha təbrik edirik! Çox sağolun, var olasınız!




*Elşad Mirbəşiroğlu,*
*Milli Məclisin üzvü*

Hörmətli Elçin müəllim, hörmətli professor və müəllim heyəti, tələbələr!

8 Noyabr Zəfər bayramı günümüzə ən gözəl töhfələrdən birinin təqdimatı tədbirinə yığışmışıq. Vətən müharibəsi dövründə Azərbaycan dövləti, ayrıca olaraq Azərbaycan Prezidenti cənab İlham Əliyev təkcə hərbi müstəvidə deyil, eyni zamanda informasiya müstəvisində müharibə apardı. Sözün əsl mənasında müharibə apardı. Hamımız çox yaxşı bilirik ki, müasir dünyamızda informasiya təhlükəsizliyinin təmin olunması milli təhlükəsizliyin çox mühüm istiqamətlərindən birini təşkil edir və etiraf etmək lazımdır ki, informasiya təhlükəsizliyini etibarlı təmin etmədən, etibarlı informasiya



təhlükəsizliyi sisteminə malik olmadan heç bir istiqamətdə nəinki təhlükəsizliyi təmin etmək, ümumiyyətlə uğur qazanmaq qeyri mümkündür.

Bu baxımdan Azərbaycan Prezidentinin strateji baxışları, onun həyata keçirdiyi siyasi-hərbi taktikaları, eyni zamanda qlobal informasiya müstəvisində atdığı addımlar bütün istiqamətlərdə Azərbaycanın uğurlarına təminat vermiş oldu. Azərbaycan Respublikası son dövrlərdə Ermənistanın saxta təbliğat maşını qarşısında dayanmağa başladı. Nəyə görə başladı? Bunu da etiraf etmək lazımdır ki, son dövrlərə qədər dünya ictimaiyyəti ya bilərəkdən, ya da bilməyərəkdən saxta informasiyalarla qidalanırdı. Azərbaycan Prezidenti informasiya mübarizəmizin sərkərdəsi rolunda həqiqətlərimizi, münaqişə vəziyyətində Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırdı. Diqqət yetirsək, görərik ki, son illərdə dünyanın ən mötəbər platformalarından, ən mötəbər tribunalarından məhz Azərbaycan Prezidenti həqiqətlərimizi çox böyük müdrikliklə arqumentləşdirərək dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Təbii ki, desəm dünyanı maraqlar idarə edir, yeni bir fikir səsləndirmiş olmaram. Bu dünyamızın, ümumiyyətlə, həyatımızın bir gerçəkliyidir. Və Azərbaycan Prezidenti məsələyə özünün unikal baxışları ilə yanaşdı. Cənubi Qafqaz regionunda dünyanın müxtəlif ölkələrinin geosiyasi, geoiqtisadi barışmaz maraqlarının olduğunu da bilirdi. Ölkə prezidenti özünün strateji baxışlarına söykənərək regionda gerçəkləşdirdiyi və təşəbbüsü ilə irəli sürülən layihələrin həyata keçirilməsi zamanı iştirakı prosesində də, ayrı-ayrı güc mərkəzlərinin maraqlarını böyük uğurla uzlaşdırmağı bacardı. O, həm də informasiya mübarizəsində Azərbaycanın mövqelərinin möhkəmləndirilməsinin etibarlı elementlərini yaradırdı. Və təbii ki, bunun nəticəsini biz zamanla görə bildik. Vətən müharibəsi dövründə, bəzi hallar istisna olmaqla, ölkəmizin ədalətli mübarizəsinə qarşı ciddi çıxışlar görmədik. Bu, Azərbaycan Prezidentinin qazanmış olduğu, əvvəlcədən əldə etdiyi böyük diplomatik qələbənin göstəricisi, əlaməti idi. Və 44 günlük Vətən müharibəsinə qədər Azərbaycan artıq siyasi qələbəsini qazanmışdı. 44 günlük Vətən müharibəsi dövründə isə biz torpaqlarımızın işğaldan azad olunmasının ikinci mərhələsinə qədəm qoyduq, yəni azadlıq mübarizəsi strategiyamızın hərbi mərhələsinə keçməklə sentyabr ayının 27-də təcavüzkar Ermənistanın növbəti təxribatlarının qarşısını almaqla yanaşı, əks hücum əməliyyatlarına da başladıq.

Qısa zaman kəsiyində haqqında miflər uydurulmuş məğlubedilməz Ermənistan ordusunu darmadağın etdik. Ermənistan rəsmilərinin özlərinin də etiraf etdiyi kimi, artıq müharibənin birinci həftəsində Ermənistan ordusunun təxminən 30-40 faizə qədəri məhv edilmişdi. Bu Azərbaycanın həm iqtisadi, həm siyasi, həm də hərbi gücünün təcəssümü idi. Və təbii ki, vətən müharibəsi dövründə ölkə Prezidenti ilə paralel olaraq Azərbaycanın mövqeyi, ölkəmizin gələcək hədəfləri haqqında dünya ictimaiyyəti üçün məlumatlar hazırlayırdıq.

Dünyanın 30-dan artıq ən nüfuzlu media orqanlarına müsahibə verən Azərbaycan Prezidenti həqiqətlərimizi çox ciddi, dərin sübutlara söykənərək dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Hamımız yaxşı xatırlayırıq ki, cənab prezidentə ünvanlanan suallar bir çox hallarda çərçivədən xeyli kənara çıxırdı. Amma bütün bunlara baxmayaraq, ölkə prezidenti siyasi müdriklik nümayiş etdirirdi. Suallara təmkinlə, Azərbaycan həqiqətlərini qarşısındakına qəbul etdirməklə cavab verirdi. Təbii ki, bütün bunlar Azərbaycan tarixinin şanlı səhifəsidir və biz bu şanlı səhifənin tarixi yaddaşını da formalaşdırmaqdayıq.

Bu baxımdan hesab edirəm ki, Bakı Dövlət Universitetində sözügedən layihənin həyata keçirilməsi, hər şeydən öncə, Vətən müharibəsi haqqında bizim tarixi yaddaşımızın formalaşdırılmasına çox böyük töhfə verəcəkdir. Gələcək nəsillərdə Azərbaycanın vətən müharibəsindəki qələbəsi haqqında aydın təsəvvürlərin yaranması baxımından bu layihənin böyük təsiri olacaqdır. Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, xüsusilə də xarici media orqanlarının nümayəndələrinə vermiş olduğu müsahibələr hesab edirəm ki, özündə Azərbaycanın gücünün bir neçə istiqamətini ehtiva edirdi. Birincisi, cənab Prezident Azərbaycan diplomatiyasının ayrı-ayrı elementləri haqqında öz təsəvvürlərini paylaşırdı.

İkincisi, Azərbaycan Prezidenti münaqişə vəziyyəti ilə bağlı obyektiv həqiqətləri dünya ictimaiyyətinin diqqətinə növbəti dəfə çatdırırdı. Üçüncüsü, Azərbaycan Prezidenti ölkəmizin gələcək hədəfləri ilə bağlı dünyanı məlumatlandırırdı. Bu baxımdan mən hesab edirəm ki, ərsəyə gəlmiş kitablar Azərbaycan tarixinin yeni bir formatda ifadəsidir.

Və sizlərdən üzr istəyərək bir təkliflə çıxış etmək istərdim. Bu dəyərli kitabların dünyanın müxtəlif dillərinə tərcümə olunub genişləndirilməsinə çox böyük ehtiyac var və informasiya təhlükəsizliyimizin təmin olunmasında onun təsiri və rolu olacaqdır. Kitabların ərsəyə gəlməsində, ümumiyyətlə bu layihənin həyata keçirilməsində zəhməti olan hər bir kəsə dərin təşəkkürümü bildirirəm. Siz bizim tariximizi yaradırsınız. Siz bizim gələcəyimizə əlavə təsirli töfhə bəxş edirsiniz. Təşəkkür edirəm.



***Elçin Şıxlı,***
*Azərbaycan Jurnalistlər Birliyinin sədri*

Hörmətli xanımlar və cənablar, əziz tələbələr və çox hörmətli pedaqoji kollektiv! Hamınızı salamlayıram və bugünkü tədbirin keçirilməsi münasibətilə təbrik edirəm. Məndən əvvəlki, Rafael müəllimin parlaq çıxışından sonra bir neçə kəlmə ilə çıxışımı bitirmək istəyirəm. Mən bir şeyi söyləmək istəyirəm ki, son 50 il ərzində ən azından Azərbaycan ilk dəfə itirdiyi torpaqları geri qaytardı. Bu böyük bir qələbədir, böyük bir şanlı salnamədir və bu salnaməni həyata keçirmək, bu salnaməni tarixə yazmaq üçün təbii ki, elmi araşdırmalar və universitet kimi bir ocaqda bunun sənədləşdirilməsi lazım idi və bu işlər də görüldü. Bir il ərzində baş verən hadisələr və burada əsas məsələ media barəsindədir. Və biz də bilirik ki, hələ müharibəni udmaq heç də bizim informasiya savaşının bitdiyi demək deyil. İnformasiya savaşı hələ də davam edir və bundan sonra da davam edəcək.

***Rafiq Həşimov,***
*Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini*

Hörmətli qonaqlar, rektor, müəllim heyyəti, tələbələr!

44 günlük Vətən müharibəsi tariximizə şanlı səhifə kimi yazıldı. Bu 44 gündə nələrə şahid olmadıq?!

Əli-qolu olmaya-olmaya mən vətən üçün heç nə edə bilmədim deyən qəhrəman qaziləri gördük. Ürəyində qəlpə ola-ola bu vətənə ürəyim qurban deyən əsgərləri gördük. Əsgərinə bu mənim qardaşımdır deyən generalı gördük. Eyni səngərdə döyüşən ata-oğulu gördük. Bütün təzyiqləri mətanətlə dəf edərək, siyasi gücləri susduran dövlət başçısını, müzəffər Ali Baş Komandanı gördük. Şəhidlərin atasızlığı yenicə dadmış körpə balalarının məğrur duruşunu gördük. Və nəhayət, yumruq kimi birləşmiş Azərbaycana dəstək olan qardaş ölkələri gördük.

Bilirsinizmi, bu 44 gündə biz nələri gördük? Bağışlayın, ola bilsin ki, bir az vaxt apardı. Bu, Azərbaycan radiosunda səslənir və Azərbaycan televiziyasında da gedir. Sadəcə burada çıxışlar o qədər rəngarəng oldu ki, istədim təkrarçılıqdan qaçım. Və bir daha xatırladım ki, bu bir ildə biz nələr gördük. Bir də onu qeyd etmək istəyirəm ki, əziz dostlar Şuşaya səfər təşkil olunmuşdu. Mən də o heyətdə vardım. Təəssüflər olsun ki, bu yaşıma baxmayaraq mən birinci dəfə idi Şuşadaydım. Orada hamam kompleksinin otaqlarını telefonun yaddaşına çəkirdim. Birdən qulağıma səs gəldi. Demək, Şuşa İcra Hakimiyyətinin binası tikilir, təmir olunur. Və səs-küydən qulaq batır. Eyni zamanda bizim məşhur bəstəkarımız Bəhram Nəsibovun bəstələdiyi "Anadır arzulara hər zaman Qarabağ" musiqisini eşitdim. Məni maraq apardı. Başladım telefonla yaxınlaşmağa, qarşımı ağac kəsmişdi. Çox maraqlı bir kompozisiya var idi. Yaxınlaşdım görüm ki, kimdir oxuyan. Əvvəlcə elə bildim oxuyan radiodur amma gördüm yox, orada tikintidə işləyən fəhlələr oxuyur bunu. Soruşdum kimsən, dedi, ağdamlıyam. Elə qəşəng oxuyurdu ki, elə bil ən azından Asəf Zeynallı adına Musiqi Məktəbinin vokalını bitirib. Bu qədər gözəl oxuyurdu. Belə başa düşdüm ki, bundan sonra hələ işlər çoxdur. Oradan qayıdandan sonra məndən təəssüratlarımı soruşdular. Dedim bircə təəssüratım var. Hərə öz yerində yaxşı işləyib, ölkə başçısına dəstək olmalıdır. Onun ətrafında birləşməlidir. Çünki görəcəyimiz işlər hələ bundan sonradır. Diqqətinizə görə təşəkkür edirəm!

Və bir daha qeyd edim ki, hörmətli cənab rektor, bu kitabın həm təşəbbüsü və ideyasına görə, həm də icrasına görə, bütün yaradıcı həyətə dərindən təşəkkür



edirəm. Çünki gələcəkdə jurnalistika ilə məşğul olmaq istəyənlər üçün böyük bir məxəz qoyursunuz. Hələ çoxlu tarix kitabları yazılacaq. Digər mənbələr inşallah ərsəyə gələcək. Amma media sahəsində sizin gördüyünüz işin bugünkü gün üçün əvəzi yoxdur. Diqqətinizə görə təşəkkür edirəm!



***Cahangir Məmmədli,***
*Jurnalistika fakültəsinin professoru*

Mən də bütün qonaqlarımızı və iştirakçıları salamlayıram. 55 ildir ki, BDU-dayam. Çox yerlərə dəvət ediblər. Amma bu universiteti qoyub heç yerə getməmişəm. Bu universitet bütöv Azərbaycandır. Bəlkə dünya miqyasında bu gün daha çox reytinq qazanıb özünü göstərən universitetdir. Bu universitetin bütün təqdirlərini ortaya qoyan bizim jurnalistlərimiz burada oturub. Bizim burada BDU-nu bitirmiş və bitirməmiş elə jurnalistlərimiz var ki, universitet adı gələndə onu müqəddəs bir varlıq kimi qəbul edirlər. Hər şey ideyadan başlayır. Bizim bu kitablarımızın ərsəyə gəlməsi çox hörmətli rektorumuz Elçin müəllimin ideyası idi. Bizi, fakültənin müəllimlərini yığdı və işçi qrupları təşkil edildi. O qrupların hər birinin bu kitabların ərsəyə gəlməsində əvəzsiz rolu oldu. Burada gözəl çıxışlar edildi. Rafael müəllim, təşəkkür edirəm. Mən sizin çıxışınızdan çox çox şey öyrəndim. Bu gün mən buradan çox şey öyrəndim. Rafiq müəllimin oxuduğu o esse.



***Qulu Məhərrəmli,***
*Jurnalistika fakültəsinin professoru*

Hörmətli toplantı iştirakçıları, cənab rektor, əziz qonaqlar, dostlar, həmkarlar və tələbələr! Bu gün BDU Zəfərlə sona yetmiş 44 günlük Vətən müharibəsinin yaddaşı ola biləcək 3 önəmli kitabı ölkə ictimaiyyətinə təqdim edir. Hesab edirəm ki, bu təqdimat ciddi mədəniyyət hadisəsi olmaqla yanaşı, həm də məzunları ön cəbhədə döyüşmüş universitetimiz üçün, müəyyən mənada, rəmzi məna daşıyır.

Deyirlər ki, hər kitab bir abidədir. Hesab edirəm ki, BDU indi göz qabağında olan bu qiymətli nəşrləri ilə bizim igid əsgərlərimizə, müzəffər ordumuza, xalqımızın döyüş ruhuna, düşmən üzərində tarixi Zəfərimizə parlaq bir abidə ucaldıb. Bu gözəl kitab-abidələrin dəyəri təkcə tarixi hadisələri özünə hopdurmasında deyil, həm də gələcək elmi tədqiqatlar üçün qiymətli mənbə rolunu oynamasındadır. Sizə deyim ki, ağır zəhmət tələb edən bu kitabların nəşri heç də asan başa gəlməyib. Hələ Qarabağda müharibənin getdiyi ağır günlərdə bu layihənin rəhbəri, hörmətli Elçin müəllim bir neçə dəfə bizlərlə - ayrı-ayrı işçi qrupları ilə görüşlər keçirib, müzakirələr aparıb, konkret istiqamətlər verib.

Mən bu proseslərin gedişatında da bir daha əmin oldum ki, istənilən ideya haqqında danışmaq çətin deyil, amma oturub araşdırmaq, təhlillər aparmaq, özü də keyfiyyətli yazmaq, konkret metodikaya əsaslanaraq qələm işlətmək hər adamın işi deyil. Mən çox sevinirəm ki, bu çətin işin öhdəsindən gəlməkdə praktik jurnalistika ilə məşğul olan həmkarlarımız bizə yaxından kömək etdilər. Bu sırada mən "Xalq qəzeti", "Azərbaycan" və "525-ci qəzet"lərin əməkdaşlarının əməyini xüsusi qeyd etmək istərdim.

Yaxşı cəhətdir ki, təqdim etdiyimiz kitablarda göstərilən media təhlilləri bizim ölkədən kənarda da aparılır və bu işlə kifayət qədər səriştəli insanlar məşğul olur. Məsələn, bu yaxınlarda BDU-nun məzunu, jurnalist Anar Həsənovun Moskva Dövlət Universitetinin nüfuzlu elmi jurnalı olan "Jurnalistika" seriyasında Rusiya mətbuatında Qarabağ müharibəsi haqqında maraqlı elmi-analitik məqaləsi dərc edilmişdir. Hazırda Rusiya Xalqlar Dostluğu Universitetinin dosenti olan A.Həsənov həmin məqalədə iki aparıcı qəzetin Qarabağ müharibəsi mövzusunda yazılarının müqayisəli təhlilini vermişdir. Məqalədə infoqrafikadan istifadə edən müəllif qəzetlərin müharibəni nə dərəcədə obyektiv işıqlandırmasını incəliklə təsvir etmişdir. Məqalədə müəllif mövqeyi və onun gəldiyi nəticələr elmi-faktik cəhətdən o dərəcədə ciddi əsaslandırılmışdır ki, adətən, ermənipərəst mövqeyində olan jurnal məqaləni çap eləməkdən imtina üçün heç bir əsas tapmamışdır. Sizə təqdim olunan kitablarda da müəlliflər analitik metodlardan istifadə etməklə yerli və xarici mediada getmiş yazıları keyfiyyətli təhlil süzgəcindən keçirməyə çalışmışlar.

Adətən, müharibə dövründə mediada gedən çıxışlarda və yazılarda emosional yanaşmalar üstünlük təşkil edir. Bunu təbii saymaq olar. Amma təhlillər həmişə soyuq başla aparılmalıdır, yəni hisslərə deyil, elmin müəyyən etdiyi istiqamət və metodikaya əsaslanmalıdır. Bir də yazıların dili çox aydın və anlaşıqlı olmalıdır. Bu mənada kitabların redaktəsi zamanı mən rektorumuz Elçin Babayevin təhlillərin səviyyəsinə və yazıların aydın dillə ifadəsi məsələsinə necə həssaslıqla yanaşmasının şahidi oldum. Ömrünü yazı-pozuya həsr etmiş bir qələm adamı kimi bu nüansı qabartmağı özümə borc bilirəm. Yəni jurnalist həmkarlarım, xüsusən pafoslu cümlələrlə, dəbdəbəli ibarələrlə əsas mətləbi kölgədə qoymağa adət etmiş qələm əhli bilməlidir ki, universitet rektorunun parlaq intellektual səviyyəsi və yüksək dil duyumu tükü-tükdən seçməyə imkan verir. Yəni biz hər hansı yazımızda, xüsusən ciddi layihələrdə mətləbin dürüst ifadəsinə və üslubun aydınlığına çox diqqət yetirməliyik. Bu mənada mən işçi qrupumuzun üzvü, prorektor Əliş müəllimin əməyini qeyd etməsəm, insafsızlıq olardı. Məhz onun koordinasiyası sayəsində bu gün BDU-nun təqdim etdiyi kitablar kollektiv əməyinin bəhrəsi kimi meydana çıxmışdır.

Sonda bir məqamı demək istərdim ki, bizim ictimai-milli düşüncə tariximizdə 27 sentyabra qədərki bir dövrdür, 27 sentyabrdan sonrakı tamamilə başqa bir dövr. 2020-ci il sentyabra qədər biz başıaşağı, başqalarının yanında gözükölgəli məğlub vəziyyətdə olan bir xalq idik. Amma 44 günlük müharibədən sonra biz keyfiyyətcə tamamilə başqa bir xalqıq. Nə yaxşı ki, bu proseslər baş verdi və nə yaxşı ki, əkshücum əməliyyatları üçün tarixi şərait, hərbi taktika çox doğru seçildi. Mən çox sevinirəm ki, müharibə başladığı dövrdə Azərbaycan xalqı daxilən şox yetkin idi. Xalq və Ordu həmrəyliyi vardı. Bütün proseslərin başında dayanan ölkə Prezidenti və Ali Baş Komandan İlham Əliyev xalqın vuran əlinə, düşünən beyninə və danışan dilinə çevrilmişdi. Məhz bütün bunların sayəsində Azərbaycan xalqı torpaqlarını 30 il işğal altında saxlayan mənfur düşmənə qalib gələ bildi.

Hörmətli akademik Rafael Hüseynov burada gözəl danışdı. O, müharibə günlərində mətbuatda çap olunmuş gözəl yazılarının birində diktator Stalinlə Rəsulzadənin dialoqundan bir parçanı təqdim edir. Həmin parçada Stalin Cümhuriyyət qurucusu Rəsulzadədən soruşanda ki, "siz bu iki ildə xalqa nə verdiniz?", Rəsulzadə cavab verir ki, düzdür, biz bu xalqa çox şeyi verə bilmədik, amma biz ona istiqlalı dadızdırdıq. İndi mən sonda deyirəm ki, Qarabağ müharibəsinin ən mühüm nəticəsi o oldu ki, dövlət başçısı son 30 ildə yalnız məğlubiyyətlər acısını yaşayan Azərbaycan xalqına QƏLƏBƏ dadızdırdı.

Bax, BDU-nun sizlərə təqdim etdiyi kitablar, məhz həmin qələbənin dadını yaşadan qiymətli nəşrlərdir və mən bu nəşrlərin ərsəyə gəlməsində iştirak edənlərin hamısına təşəkkür edirəm!

Ona mən esse deyərdim. Adamı çox kövrəldən essedir. Hamınıza təşəkkür edirəm. 55 ildir ki, bu universitetin əməkdaşı olan bir insanın sizə təşəkkür etməyə mənəvi haqqı var. Hamınızı bağrıma basıram. Allah sizi var eləsin. Bu kitablar sözün əsl mənasında bu günün, sabahın informasiya mənbəyidir. Bu mənbələr sabah ayrı-ayrı namizədlik, doktorluq işlərinin yazılmasına rəvac verəcəkdir. Biz fakültəmizdə bu gün bu kitablarda olan mövzuların böyük əksəriyyəti ilə bağlı magistrant və aspirantlara mövzular verməyə başlamışıq. 44 günlük Vətən müharibəsi dövründə baş verən hadisələri biz yenidən elmi işə gətirəcəyik. Mənim çox sevdiyim, tələbəmiz olmuş şairin çox gözəl sözü var. O sözü biz tez-tez “525-ci qəzet”də təkrar edirik. Ali Baş Komandanımızı, Prezidentimizi ordumuzun birinci əsgəri adlandırmışıq. Allah bizim birinci əsgərimizi qorusun! Allah bizim vətənimizi qorusun! Allah bizim ordumuzu qorusun! Xalqımızın bugünkü birliyini qorusun!



**Rəşad Məcid,**
*"525-ci qəzet"in baş redaktoru*

Azərbaycan Respublikası Prezidentinin müsahibələri özlüyündə bir məktəbdir və jurnalistika fakültəsində tədris olunmağa layiq səviyyədə müsahibələrdir. Həmin müsahibələrin birində cənab Prezident dedi ki, mən hazırlıqlı adamam. Rafael müəllimin də dediyi kimi, jurnalist ən fərqli, müxtəlif düşüncələrin, baxışların cəmləşdiyi sualları Azərbaycan Prezidentinə ünvanlayır və hamısının da çox hazırlıqlı cavabını alırdı.

İkinci kitab mətbuatmızın müharibə dövründəki fəaliyyəti barədədir. Hiss olunur ki, mətbuat diqqətlə izlənilib. Eyni zamanda Bakı Dövlət Universitetinin professor - müəllim heyəti və tələbələrinin 44 günlük müharibə müddətində gördüyü işlər də heyrətamizdir. Burada böyük bir komanda çalışırdı. Biz bunu həm də bir simmetriklik vəziyyətdə hiss edirdik. Məsələn, Cahangir müəllimin, Akif müəllimin enerjisi ilə gənc Azad Nuriyev, Kənan Novruzovun enerjisi bir-birinə qarışırdı. Hər gün çoxlu yazılar yazılır, qəzetdə bunların çapını bəzən çatdırmaq olmurdu, yer azlıq edirdi. Amma həm tələbələrin, həm də müəllimlərin bu enerjisini, bu istəyini başa düşürdük. Və bu kitabda həmin enerji özünə yer tutub, yer alıb.

Bu 44 günlük Vətən müharibəsindəki birliyimizin, eyni zamanda Bakı Dövlət Universitetinin aparıcı bir təhsil müəssisəsi, ali məktəb kimi öndə olmasının bariz nümunəsidir.

Bu günlərdə cənab Prezident Qubadlıda olarkən orada millət vəkillərindən biri dedi ki, bizim müharibəmiz davam edir. Əlbəttə, belə qonşularımız varkən biz ömür boyu informasiya müharibəsi, psixoloji müharibə içərisində olacağıq. Bu da hər bir azərbaycanlıdan sərrast və dəqiq olmağı, ağıllı olmağı, tələb edir.

Bu gün burda Rafael müəllim çox gözəl çıxış etdi. Mənim yadımda Nəsrəddin Tusi ilə bağlı dediyi "yerdə rahat yaşamaq istəyiriksə, göydən əmin olmalıyıq" fikri qaldı. Bu mənada bizim tələbələr üçün də daim öyrənmək lazımdır. Həm də özümüzdə olan ən yaxşı natiqlərin, alimlərimizin fikirlərindən nümunə götürmək lazımdı.

Bu günlərdə hamımız Zəfər Günümüzü gözləyirik. Keçən il ayın 6-da artıq Fransa qəzetləri Azərbaycan əsgərlərinin Şuşaya qalxdıqları barədə ilkin xəbərləri yazırdı və ayın 8-də Şuşa azad olunanda bu, artıq bütün Qarabağın azad olunması demək idi. Mən o yerləri yaxından tanıyan bir insan kimi onda da yazmışdım ki, Şuşa əgər kimdədirsə, Qarabağ da ondadır. Və Şuşa barədə də uzun illərdən bəri danışanda ən gözəl fikirləri işğal günündə səsləndirirdim. Amma keçən il müharibəmiz başlayandan sonra mənim ən sevimli sitatlarım Ali Baş Komandan cənab Prezidentin sözləri olub. İlk dəfə 4 oktyabrda Cəbrayılın alınması ilə bağlı xalqa müraciət edəndə barmağını yelləyərək "Bizim müqəddəs şəhərimizi murdarladılar" sözlərini işlətdi və ilk dəfə idi ki, cənab prezident müqəddəs şəhər elan edirdi Şuşanı. Elə o ərəfələrdə məhz birinci xanım Mehriban Əliyevanın sosial şəbəkələrdə bu fikirləri yayılmışdı "Qoy uca Tanrı hər bir Azərbaycan vətəndaşına müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin". Bu müqəddəs sözləri birinci xanım deməklə ürəyimizə bir təskinlik verirdi. Və bu təskinliyi də hər dəfə cənab Prezidentin çıxışlarında, müraciətlərində, müsahibələrindəki fikirlər daha da möhkəmləndirirdi.

Ondan sonra cənab Prezident türkiyəli jurnalistə müsahibəsində dedi ki, "Şuşasız bizim işimiz yarımçıq olar". O da yenə dillər əzbərinə çevrildi və noyabrın 8-də Şuşa alınanda dediyi fikirlər isə hamının bir bayatı kimi təkrarladığı fikirlərdir. "Əziz Şuşa biz qayıtmışıq! Əziz Şuşa sən azadsan! Əziz Şuşa biz səni dirçəldəcəyik". Və ondan sonra yanvar ayında Şuşaya səfər edir. İlk dəfə uzun fasilədən sonra Azərbaycan Prezidenti kimi Şuşaya getdi və orada yenə Şuşa haqqında dedi ki, "Sözün düzü, adam heç Şuşadan getmək istəmir".

Novruz bayramında yenə Şuşada tonqal qaladı, Şuşa haqqında xoş sözlər dedi. Və tale belə gətirdi ki, mayın 12-də mən də Xarıbülbül musiqi festivalına dəvət olundum. 29 ildən sonra yenidən Şuşanı görürdüm. O həyəcan, Polad Bülbüloğlunun, Fərhad Bədəlbəylinin, Firəngiz Mütəllimovanın əyilib Cıdır düzündəki daşları öpməsini müşahidə etdim. Və orada da yenə Cənab Prezident Şuşa haqqında ən gözəl sözlərdən birini dedi: "Bizim bugünkü musiqi festivalımız qəhrəman şəhidlərimizin xatirəsinə həsr olunub. Biz Şuşanın azadlığını qəhrəman əsgərlərimizə borcluyuq." Və dedi ki, "Mən dünyanın çoxlu şəhərlərini gəzmişəm, amma Şuşaya bənzər şəhər görməmişəm". Və həmin gün mayın 12-si 15 dəqiqə çəkən atəşfəşanlıq oldu dağlarda, bütün düşmənin gözünü çıxaran atəşfəşanlıq. Səhərisi gün mən yuxudan Alim Qasımovun zənguləsilə Azan səsinə ayıldım və özüm də inana bilmirdim ki, Şuşadayam, Şuşa azaddır. Bu hissləri, bu duyğuları bizə Azərbaycan əsgəri, Azərbaycanın Ali Baş Komandanı bəxş etdi.

*Min şəhər adı var dillərdə əzbər,*
*Adların ən üstün adıdır Şuşa.*
*Musiqi notudur cüt hecasıyla,*
*Dilimin ləzzəti, dadıdır Şuşa.*

*Ciyərdə nəfəsdir, damarda qandır,*
*Ruha qanad verən sirli məkandır,*
*Biri beş edəndir, güc artırandır,*
*Qoşundur, əsgərdir, ordudur Şuşa.*
*Bayramınız mübarək olsun!*



**Aynur Nəsirova,**
*Jurnalistika fakültəsinin dosenti*

Hörmətli tədbir iştirakçıları, əziz qonaqlar! Bu dəyərli gündə hər birinizi salamlayır, xoşgəldiniz deyirik. Nəyə görə mən "bu əlamətdar gün" dedim, çünki, bu gün həm də ona görə əlamətdardır ki, qələbə bayramımıza, Zəfər Günümüzə sayılı günlər qalıb. Yəni bu ərəfədə bizim bu əməyimizin ərsəyə gətirilməsi, onun ictimaiyyətə təqdim olunması daha bir əlamətdar hadisədir. Bizdən əvvəlki çıxışlarda Rafiq müəllimin çıxışı bizi çox kövrəltdi və gördüklərimizi bir daha xatırlatdı, amma mən nəyə görə Zəfər bayramından danışdım, çünki, bu gördüklərimizin yekununda biz zəfər çaldıq, qələbə qazandıq. Qalib ölkənin vətəndaşları kimi həm dünya ictimaiyyətinin gözünün içinə dik baxa bildik, həm də ərazi bütövlüyümüzü bərpa etdik.

Və bu kitabımızda gördüklərimizə istəyirəm nəzər salım, yəni bu kitab, bu vəsaiti mən yol xəritəsi adlandırardım. Ona görə yol xəritəsi adlandırardım ki, həcminin az olmasına baxmayaraq bu kitabdan bəhrələnməklə onlarla, yüzlərlə elmi işlər ortaya qoyulacaq.

İnanıram ki, bu kitabda qeyd olunan ayrı-ayrı detallar, ayrı-ayrı nüansların hər biri bir elmi iş kimi ictimaiyyətə təqdim olunacaq. Qulu müəllim işçi qrupundan danışdı, işçi qrupunun gördüyü işlərdən danışdı. Mən də bu işlər barəsində danışmaq istəyərdim. Əvvəlcə layihənin rəhbəri rektorumuz Elçin müəllimə təşəkkür edirik. Ona görə təşəkkür edirik ki, bu qələbə zəfərindən dərhal sonra işçi qrupunun iclası keçirildi və həmin işçi qrupunun iclasında Elçin müəllimin bu layihəni təqdim etməsi ilə biz düşünmədən, heç bir tərəddüd etmədən bu layihəyə başlamaq qərarı verdik.

Doğrudan da, biz bu layihəni düşünürəm ki, uğurla nəticələndirdik. Ona görə bu layihə uğurla nəticələndi ki, biz həmin tarixi yazanların arasında olduq. Yəni bu qələbə təkcə döyüş bölgəsində qazanılmadı. Bu qələbəni bizə Ali Baş Komandanımız, müzəffər ordumuz yaşatdı. Eyni zamanda, informasiya cəbhəsindəki qələbə də qeyd olunmalıdır. Biz həm də informasiya cəbhəsində qalib olduq və bu qalibiyyətdə Bakı Dövlət Universitetinin çoxsaylı əməkdaşları da yaxından iştirak etdi. Mən inanıram ki, bizim açdığımız bu cığırla hələ çoxları irəliləyəcək və çox elmi işlər, çox dissertasiyalar və kitablar ərsəyə gətiriləcək. Çox sağ olun, təşəkkür edirəm.

# “Şuşa Elm Festivalı” layihəsinin qaliblərinin təltif olunma mərasimi keçirilib

***Noyabrın 29-da Bakı Dövlət Universitetində Azərbaycan Gənclər Fondunun elan etdiyi XV qrant müsabiqəsinin qalibi - “ELM” Gənclərin Sosial-İntellektual İnkişafına Dəstək İctimai Birliyinin “Şuşa Elm Festivalı” adlı layihəsinin qaliblərinin təltif olunması mərasimi keçirilib.*** Tədbirdə BDU-nun professor-müəllim heyəti, tələbələr və müsabiqənin qalibləri iştirak edib.

Festivalın keçirilməsində əsas məqsəd gənc istedadları üzə çıxarmaq, onlara stimul vermək, Şuşanın mədəniyyətini və tarixini dərindən öyrənmək, tələbələrdə elmə maraq yaratmaq və müxtəlif məntiqi suallar ilə onların intellektual inkişafına dəstək olaraq asudə vaxtlarının səmərəli keçirməsinə yardımçı olmaqdır.

Layihənin rəhbəri, Mexanika-riyaziyyat fakültəsin müəllimi Səbuhi Abdullayev bildirib



ki, layihənin başlanğıcının Cıdır Düzündən elan olunması, layihəyə diqqət və marağın artmasına , eləcə də Şuşanın elm və mədəniyyətlə tanınmasına töhfə olacaq.

Qeyd edək ki, layihə üç seçim mərhələsindən ibarətdir. Bu turda iştirakçılara Şuşanın mədəniyyət və tarixi haqqında, eləcədə intellektual biliklərini sınayan 20 sual təqdim edilib

Final mərhələsinə 30 nəfər qalib seçilib.

# BDU Əskişəhər Texniki Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalayıb

***Bakı Dövlət Universiteti dünyanın nüfuzlu elm və təhsil müəssisələri arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsini, qarşılıqlı elm, təhsil mübadiləsinin təmin edilməsini, beynəlxalq əlaqələrin inkişaf etdirilməsini davam etdirir. Beynəlxalq əməkdaşlığın genişləndirilməsi universitetinin inkişaf startegiyasında prioritet məsələ hesab olunur. Bu məqsədlə noyabrın 3-də BDU ilə Türkiyənin Əskişəhər Texniki Universiteti arasında Anlaşma Memorandumu imzalanıb.***

BDU ilə Əskişəhər Texniki Universiteti arasında imzalanan Anlaşma Memorandumu kadr potensialının möhkəmlənməsinə, professor-müəllim heyətinin mübadiləsinə, tələbələrin təcrübəsinin artırılmasına təkan verməklə yanaşı, məzunların karyera qurmaq istiqamətində nailiyyətlərinin artmasına da təkan verəcək.

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Əskişəhər Texniki Universitetinin rektoru Tuncay Döğeroğlu imzalayıb. Müqavilənin məqsədi tərəflər arasında elm, təhsil, mədəniyyət sahələrində müştərək layihələrin icra edilməsi, akademik, elmi və mədəni mübadilə imkanlarının inkişafı, elmi-tədqiqat işlərində əməkdaşlıq, müəllim-tələbə mübadiləsinin həyata keçirilməsindən ibarətdir. Müqaviləyə əsasən, tərəflər arasında birgə elmi və maddi-texniki potensialdan qarşılıqlı istifadə edilməsi, universitetlərin bakalavr və magistratura pilləsində təhsil alan tələbələrin istehsalat təcrübəsinin təşkil edilməsi də nəzərdə tutulur.

Məlumat üçün bildiririk ki, Əskişəhər Texniki Universitetinin əsası 2018-ci ildə qoyulub, URAP (University Ranking by Academic Performance) Araşdırma Laboratoriyasının 2021-2022 Türkiyə üzrə reytinqində 87-ci yeri tutub. Hazırda universitetdə 12800-dən çox tələbə təhsil alır.

# BDU İtaliyanın Trento Universiteti ilə əməkdaşlıq edəcək



***Dünyanın nüfuzlu elm və təhsil müəssisələri ilə sıx əlaqələr quran, nüfuzlu ali təhsil müəssisələri ilə ikili diplom proqramlarını həyata keçirən Bakı Dövlət Universiteti beynəlxalq əlaqələrini genişləndirməkdə davam edir. Bu məqsədlə noyabrın 2-də BDU ilə İtaliyanın Trento Universiteti arasında Anlaşma Memorandumu imzalanıb.***

Memorandum universitetlər arasında əlaqələrinin inkişaf etdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılması, akademik, elmi və mədəni mübadilə imkanlarının inkişafı, elmi-tədqiqat işlərində birgə əməkdaşlığın qurulmasını nəzərdə tutur.

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Trento Universitetinin rektoru Flavio Deflorian imzalayıb. Müqavilənin məqsədi tərəflər arasında elm, təhsil, mədəniyyət sahələrində müştərək layihələrin icra edilməsi, akademik, elmi və mədəni mübadilə imkanlarının inkişafı, elmi-tədqiqat işlərində əməkdaşlıq, kadrların mübadiləsinin həyata keçirilməsi, adıçəkilən sahələrdə və qarşılıqlı maraq doğuran digər sahələrdə müxtəlif tədbirlərin, o cümlədən konfransların, sərgilərin, seminarların, simpoziumların, təlimlərin birgə təşkili və keçirilməsindən ibarətdir.

Məlumat üçün bildiririk ki, Trento Universitetinin əsası 1962-ci ildə qoyulub, QS Dünya Universitetləri Reytinq Cədvəlində 440-cı yeri tutur. Hazırda universitetdə 16000-dən çox tələbə təhsil alır. Sözügedən universtetdə 600-ə yaxın professor və tədqiqatçı və eyni sayda texniki və inzibati heyət var.

# BDU-da SABAH qrupları ilə bağlı görüş keçirilib

***Noyabrın 23-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Azərbaycan Respublikası Təhsil Nazirliyinin SABAH qruplarının İcra Komitəsinin rəhbərinin Tədris işləri üzrə müavini Eldar Qocayev, Tələbələrlə iş üzrə müavini Sevinc Əliyeva və Təhsil Nazirliyinin SABAH qrupları İcra Komitəsinin rəhbərinin köməkçisi Leyla Hüseynova ilə görüşüb.***

Görüşdə həmçinin BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov, Tədrisin təşkili və idarə olunması Mərkəzinin direktoru Elçin Məmmədov və BDU SABAH mərkəzinin rəhbəri İradə Süleymanova iştirak edib. Görüşdə 2021-2022-ci tədris ilində SABAH qruplarına qəbul olan tələbələrin mövcud vəziyyəti, pandemiya dövründə tədrisin təşkili, tələbələrin texniki-təchizat təminatı ilə bağlı məsələlər müzakirə olunub. Görüş zamanı SABAH qruplarında növbəti semestr ərzində görüləcək işlərlə bağlı fikir mübadiləsi aparılıb.

# Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçə BDU-nun Fəxri doktoru adı verildi





***Noyabrın 6-da Bakı Dövlət Universitetində Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçə BDU-nun Fəxri doktoru diplomu təqdim olunub.***

İclasda BDU-nun rektoru Elçin Babayev dünyanın tanınmış siyasətçilərindən biri, müasir dünyada demokratiyanın inkişafına layiqli töhfələr vermiş ictimai-siyasi xadim, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçin Bakı Dövlət Universitetinə gəlişini əlamətdar hadisə adlandırıb. Ali qonaq haqqında məlumat verən Elçin Babayev bildirib ki, Ş.Caferoviç Bosniya və Herseqovinanın çiçəklənməsi, demokratik dəyərlərin möhkəmlənməsi, ölkənin Avropa yönümlü tərəqqisi, həmçinin elmin və təhsilin inkişafı üçün böyük işlər görüb. Qonağın Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyini dəstəklədiyini, Azərbaycan - Bosniya və Herseqovina arasında ikitərəfli əlaqələrin, təhsil və elmi əməkdaşlığın inkişafına böyük önəm verdiyini xüsusi vurğulayıb.

Rektor iki dövlət arasındakı diplomatik əlaqələrdən, yüksək səviyyəli strateji tərəfdaşlıq münasibətlərindən bəhs edib, eyni zamanda, qonağa BDU haqqında məlumat verib.

Rektor çıxışının sonunda BDU Elmi Şurasının 03 oktyabr 2021-ci il tarixli iclasında Şefik Caferoviçə BDU-nun Fəxri doktoru adının verilməsi haqqında qərarını elan edib. BDU Elmi Şurasının qərarı ilə cənab Şefik Caferoviç Azərbaycan və Bosniya və Herseqovina arasında ikitərəfli əlaqələrin və elmi əməkdaşlığın inkişafında xüsusi xidmətlərinə görə BDU-nun Fəxri doktoru adına layiq görülüb.

Rektor Fəxri doktor diplomunu ali qonağa təqdim edib.

Xarici işlər nazirinin müavini Elnur Məmmədov ölkəmizdə gedən inkişaf prosesindən, əldə edilən nailiyyətlərdən, Azərbaycan-Bosniya və Herseqovina arasında yüksək əməkdaşlıq əlaqələrindən söz açıb, Şefik Caferoviçin bu əlaqələrin inkişafındakı xidmətlərindən bəhs edib.

Sonra Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviç BDU-nun Fəxri doktoru adına layiq görülməsindən məmnunluğunu ifadə edib, Azərbaycan-Bosniya və Herseqovina münasibətlərinin inkişafından danışıb. Azərbaycanın ərazi bütövlüyünün bərpası münasibətilə tədbir iştirakçılarını təbrik edib, siyasi, iqtisadi, mədəniyyət məsələlərində əməkdaşlığın davam etdirilməsinə əminliyini ifadə edib.

## "CV yazarkən nələri bilməliyik? - ilkin anlayışlar" mövzusunda təlim keçirilib

***Noyabrın 30-da Bakı Dövlət Universitetində Karyera və məzunlarla əlaqə sektoru və Tarix fakültəsinin birgə təşkilatçılığı ilə "CV yazarkən nələri bilməliyik? - ilkin anlayışlar" mövzusunda təlim keçirilib.***

Tədbirdə Karyera və məzunlarla əlaqə sektorunun əməkdaşı İlkin Şərifov tələbə-gənclərə sektorun iş planından, həyata keçirdiyi layihələrdən danışıb və gəncləri daima öz üzərlərində işləməyə çağırıb. Hər gün dəyişərək yenilənən əmək bazarında ömürboyu təhsilin önəmini vurğulayan İ.Şərifov daha sonra iştirakçılara təlimçini təqdim edib və bildirib ki, bu istiqamətdə təlim və seminarlar mütamadi olaraq həyata keçiriləcəkdir.

Təlimi BDU-nun İnsan resursları sektorunun müdiri Sevinc Rzayeva real keyslərdən istifadə edərək gənclərin təlimdə daha interaktiv olmalarını təmin edib. Çıxışında bildirib ki, CV işaxtaran üçün reklam xarakteri daşıyır. Onun mahiyyətinin işverəni qabaqcadan iş axtaranın professional keyfiyyətlərilə tanış etmək, diqqəti həmin iş axtarana cəlb etmək, işvərəni maraqlandırmaq və görüşə sövq etmək olduğunu diqqətə çatdırıb. CV-nin əsas məqsədinin - bilavasitə tanışlıq və işə qəbul olunmaq üçün işverənlə müsahibəyə dəvət almaq olduğunu bildirib və onun hazırlanma texnologiyasını, nələrə diqqət etməyin vacivliyini izah edib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

## Kəlbəcər rayonunun azad olunması münasibətilə tədbir keçirilib

***Tədbir Kimya fakültəsində keçirilib. Kimya fakültəsi TGT sədri Əli Qədirlinin moderatorluğu ilə keçirilən tədbirdə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

Giriş sözü ilə çıxış edən Kimya fakültəsinin dekan müavini Taleh Qəhramanov Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə istər döyüş meydanında, istərsə də siyasi müstəvidə xalqımızın qazandığı möhtəşəm qələbədən bəhs edib. Tədbirdə həmçinin Kimya fakültəsinin 1-ci kurs tələbəsi Mehriban Ağabəyli Kəlbəcərin tarixən Azərbaycan torpağı olmasından və mənfur qonşularımızın milli-mədəni sərvətlərimizə vurduğu zərərdən danışıb.

# "Gənc istedadlar" liseyinin şagirdləri Polad Həşimovun xatirəsini anıblar

***Noyabrın 2-də Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən "Gənc İstedadlar Liseyi"nin 6b sinif şagirdləri İkinci Fəxri Xiyabanda 8 noyabr - Zəfər Gününə həsr olunmuş anım tədbiri keçiriblər.***

Xiyabanın girişində Dövlət Himninin ifası ilə başlayan tədbirdə şagirdlər - Gülər, İsmayıl, Arzu, Ağabəy və başqaları Milli Qəhrəman, şəhid general Polad Həşimovun və şəhidlərimizin xatirəsinə həsr olunmuş şeirlər səsləndiriblər. Sonra sinif kollektivi Polad Həşimovun xatirəsinə bəstələnmiş, "Generalım", Zəfər Gününə həsr olunmuş "Qələbə" mahnılarını birgə ifa ediblər.

Şagirdlərin hazırladığı tədbir Fəxri Xiyabana ziyarətə gələn paytaxt sakinlərinin də marağına səbəb olub, ətrafda dövrə vurub uşaqları dinləyib, foto, video çəkiblər.



Daha sonra anım tədbiri Polad Həşimovun məzarı üzərində davam etdirilib. Şagirdlər əllərindəki qərənfilləri generalın məzarı üzərinə düzüb onun xatirəsini saygı ilə anıblar. Sinif rəhbəri Gülşən Əliyeva uşaqlar qarşısında nitq söyləyib, 44 günlük müharibədə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun göstərdiyi rəşadətli mübarizəni anladıb. "Sizlər qəhrəman şəhidlərimizin, igid əsgərlərimizin davamçılarısınız. Biz daim onların xatirəsini uca tutub, qəlbimizdə yaşadacağıq. Bu möhtəşəm qələbə bizim şanlı tariximizin iftixar səhifəsidir, Allah onu bizə bəxş edən, bu yolda canından keçən bütün şəhidlərimizə rəhmət eləsin!" - deyə sinif rəhbəri çıxışını bitirib.

Daha sonra şagirdlər Fəxri Xiyabanda uyuyan şəhidlərimizin məzarlarını ziyarət edib xatirə fotoları çəkdiriblər.

# BDU əməkdaşları şəhid Tural Eyyubovun məzarını ziyarət ediblər



***Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekan müavinləri Fərhad Mirzəyev, Şamo Cəbrayılov, fakültənin əməkdaşları Səbinə Abbasova və Yasəmən Hüseynova Vətən müharibəsində şəhid olmuş BDU məzunu leytenant Tural Yadulla oğlu Eyyubovun məzarını ziyarət ediblər.***

2009-cu ildə Tətbiqi riyaziyyat və kibernetika fakültəsinə daxil olan Tural Eyyubov 2013-cu ildə Universiteti bitirib və həmin ilin oktyabrında hərbi xidmətə yola düşüb. Hərbi xidməti zamanı TTM-də motoatıcı tağım komandirliyi kursunu müvəffəqiyyətlə başa vuran Tural zabit kimi xidmətini davam etdirib.

2020-ci ilin oktyabrında Vətənin müdafiəsinə qatılan leytenant Tural Eyyubov Füzuli, Xocavənd, Şuşa uğrunda rəşadətlə döyüşərək 25 oktyabda şəhidlik zirvəsinə ucalıb. Qəhrəman şəhidimiz ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif olunub.

BDU əməkdaşları şəhidin məzarına gül dəstələri qoyub, ruhuna dualar oxuyub, əziz xatirəsini anıblar.

# BDU-nun kollektivi şəhid məzunlar Şəhriyar Həbibinin və Fikrət Zeynallının ailələrini ziyarət edib

Fizika fakültəsinin bir qrup kollektivi Lənkəran rayonu Osakücə kəndində fakültənin şəhid məzunu Şəhriyar Həbibinin, Tovuz rayonu Aşağı Öysüzlü kəndində isə şəhid məzun Fikrət Zeynallının ailəsini ziyarət ediblər. Ziyarətdə Fizika fakültəsinin dekan müavinləri Vüsal Məmmədov, Məhəmməd Məhərrəmov, Şəhla Hacıyeva, professor Yusif Nurullayev, dosentlər Tərlan Hüseynov, Zahir Səmədov, Rəhim Rəhimov, müəllimlər Vüsalə Dadaşova, Sevda Məmmədova, Şirxan Hümbətov, əməkdaşlar Aida Əhmədova, Nəzakət Kərimova, Orxan Güləhmədov, tələbələr Ramazan Hüşənov, Elvina Dadaşova, İlahə Zalovlu iştirak ediblər. Ziyarətdə çıxış edənlər şəhid məzunların Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmalarından qürur duyduqlarını, onların qəhrəmanlığının tələbə gənclərə nümunə olduğunu bildiriblər. Onların həm müəllimlərinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün örnək olacağı vurğulanıb.





Sonra şəhidlərin ailə üzvləri və yaxınları ilə birgə məzarları ziyarət olunub, məzarları önünə gül dəstələri düzülüb, ruhlarına dualar oxunub.

Qeyd edək ki, Şəhriyar Həbibi 2010-2014-cü illərdə BDU-nun Fizika fakültəsində təhsil alıb. 2016-cı ildə hərbi xidmətdə olduğu dövrdə Aprel döyüşlərində iştirak edib. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 2020-ci il 27 sentyabr tarixindən başlayan Vətən müharibəsində Cəbrayıl, Zəngilan istiqamətində gedən döyüşlərdə iştirak edib, noyabrın 6-da Qubadlı istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Şəhriyar Həbibi ölümündən sonra "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib. Fikrət Zeynallı isə 2012-2016-cı illərdə BDU-nun Fizika fakültəsində təhsil alıb. Vətən müharibəsi zamanı Şuşa və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib, noyabrın 9-da Xocavənd istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Fikrət Zeynallı ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqləndiyinə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

# Şəhid məzun Cavid Manafovun ildönümündə məzarı ziyarət edilib



***Universitetin bir qrup kollektivi Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmış, Sosial elmlər və psixologiya fakültəsinin məzunu Cavid Manafovun ildönümündə ailəsi ilə görüşüb, məzarını ziyarət ediblər.***

Ziyarətdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Sosial elmlər və psixologiya fakültəsiniun dekan müavini İranə Məmmədli, fakültənin müəllimləri Elnarə Piriyeva, Ramin Allahverdiyev, Səyyarə Yusubova və tələbələr iştirak ediblər. Ziyarətdə çıxış edənlər Cavid Manafovun Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını, onun qəhrəmanlığının tələbə gənclərə nümunə olduğunu bildiriblər. Cavidin həm müəllimlərinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün örnək olacağı vurğulanıb.

Sonra şəhidin ailə üzvləri və yaxınları ilə birgə məzarı ziyarət olunub, məzarı önünə gül dəstələri düzülüb, ruhuna dualar oxunub.

Qeyd edək ki, Cavid Manafov ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

# BDU THİK "Zəfər tarixi" adlı tədbir keçirib



***Noyabrın 5-də Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) "Zəfər tarixi" adlı tədbir keçirib. Tədbiri BDU THİK sədri Hacıbaba Mustafayev açaraq 44 günlük Vətən müharibəsində qələbəmiz və ordumuzun qəhrəmanlıqlarından danışıb.***

H.Mustafayev BDU THİK-in şəhid olmuş məzunların ailələri və məzun qazilərə diqqət və qayğısı istiqamətində gördüyü işlər barədə məlumat verib.

Tədbirdə BDU THİK tərəfindən Zəfər Gününə həsr olunmuş esse və rəsm müsabiqələrinin qalibləri açıqlanıb. Qaliblərə fəxri fərmanları BDU-nun İctimaiyyətlərlə əlaqələr və informasiya şöbəsinin müdiri Günel Orucəliyeva, Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Sabah qrupları rəhbərinin müavini Gündüz Camalov, Sosial elmlər və psixologiya fakültəsinin dekan müavini İranə Məmmədli təqdim ediblər.

Təltifetmə mərasimindən sonra BDU THİK heyətinin hazırladığı fləşmobdan görüntülər təqdim olunub.

Sonda Vətən Müharibəsi haqqında məlumatın 8 dildə səsləndirildiyi videoçarx nümayiş etdirilib.

# BDU-da "Qəhrəmanlarımız" layihəsi çərçivəsində tələbələrin şəhid ailələri ilə növbəti görüşü keçirilib

***Noyabrın 16-da Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Gələcəyin tarixi" klubunun "Qəhrəmanlarımız" layihəsi çərçivəsində tələbələrin şəhid ailələri ilə növbəti onlayn görüşü keçirilib.***

Klubun rəhbəri, Tarix fakültəsinin II kurs tələbəsi Güllü Həsənzadə tədbiri açıq elan etdikdən sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra şəhid Rüfət Mustafayevin anası Afət Həsənova, qohumları Sənubər Məmmədova, Türkan Mustafayeva şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs edib, onunla bağlı təəssüratlarını bölüşüblər. Çıxış edənlər vətənpərvər gənclərimizin milli ruhda böyüməsi, vətəninə, torpağına necə bağlı olması barədə söhbət açıblar .



Daha sonra Vətən müharibəsi qaziləri Elvin Bəkirov və Vüqar Şükürov 44 günlük Vətən müharibəsində göstərdikləri igidlikdən, torpaqlarımızı azad edərkən necə qəhrəmancasına vuruşmaları haqqında xatirələrini bölüşüblər.

# BDU-nun tələbələri “Vətənim Azərbaycandır" adlı esse müsabiqəsinin qalibi olublar



***2020-ci il dövlətçilik tariximizə qızıl hərflərlə yazıldı, Zəfər ili kimi həkk olundu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz işğalçı Ermənistan üzərində möhtəşəm Qələbə qazandı, xalqımızın 30 illik həsrətinə son qoyuldu. Bu qələbə münasibətilə əsərlər yazılır, ölkəmizdə yarmarkalar təşkil edilir, müsabiqələr keçirilir. Keçirilən belə müsabiqələrdən biri olan "Vətənim Azərbaycandır" adlı esse müsabiqəsi uğurla başa çatdı.***

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi, Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə “Zəfər yolu” layihəsi çərçivəsində Azərbaycan ali məktəb tələbələri arasında Vətən müharibəsində qazanılmış şanlı qələbəmizin 1-ci ildönümünə həsr olunmuş "Vətənim Azərbaycandır" adlı esse müsabiqəsinin nəticələri açıqlanıb.

Bakı Ali Neft Məktəbində keçirilən tədbirdə qaliblər diplom və mükafatlarla təltif ediliblər. Müsabiqədə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin 3-cü kurs tələbəsi Sevinc İbrahimzadə 1-ci yer, Filologiya fakültəsinin 3-cü kurs tələbəsi Aynurə Abbaszadə 2-ci yer, Hüquq fakultəsinin magistrantı Aydan Həsənova 3-cü yerin qalibi olub. Jurnalistika fakültəsinin 2-ci kurs tələbələri - Fidan Məmmədli və Nəzrin Gəncəliyeva isə həvəsləndirici mükafata layiq görülüblər.



Qeyd edək ki, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri əfsanəvi kəşfiyyatçı Murov Qartalı ləqəbli aprel Şəhidi polkovnik-leytenant Raquf Orucovun xanımı Sevinc Orucovadır.

Tələbələrimizi təbrik edir, təhsillərində və gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.

# “BDU Könüllüləri”nin təşkilatçılığı ilə Hacı Zeynalabdin Tağıyevə həsr olunmuş tədbir keçirilib

***Noyabrın 2-də “BDU könüllüləri”nin Ekologiya və torpaqşünaslıq fakültəsindən olan üzvlərinin təşkilatçılığı ilə məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə çıxış edən Ekologiya və torpaqşünaslıq fakültəsinin dekan müavini Fətəli Hüseynov, “BDU Könüllüləri”nin fakültə üzrə sədri Leyla İmaməliyeva görkəmli xeyiriyyəçinin həyatından, uşaqlıq illərindən, şərəfli ömür yolundan, vətən və xalq naminə gördüyü xeyriyyəçilik fəaliyyətindən bəhs ediblər. Çıxışlarda bildirilib ki, H.Z.Tağıyev Azərbaycan xalqının rifahının yüksəlməsi, maariflənməsi üçün əlindən gələni əsirgəməmiş, ölkəmizdə təhsil və mədəniyyət ocaqlarının açılmasına, Azərbaycan tələbələrinin xaricdə təhsil almasına böyük vəsait ayırmış, səy göstərmişdir.

Daha sonra tələbələr - Hatəm Həzizadə, Gülər Quluzadə, Ömər Hümbətzadə, Rühsarə Namazlı çıxış edərək Azərbaycan xalqının tarixinə milli kadrların hazırlanmasına böyük təsiri olan bir xeyriyyəçi və milyonçu kimi daxil olan Tağıyevin gördüyü işlərin bu gün də təhsilin, mədəniyyətin, incəsənətin inkişaf etdirilməsində rol oynadığını vurğulayıblar.

# BDU gənclərin məşğulluq problemləri ilə bağlı keçirilən konfransda təmsil olunub

***Noyabrın 4-də Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının təşkilatçılığı ilə gənclərin məşğulluq problemlərinə həsr olunmuş konfrans keçirilib. Ali təshil müəssisələrinin və dövlət qurumlarının nümayəndələrinin təmsil olunduğu konfransda BDU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri Rəşad Cabarov və Karyera və məzunlarla əlaqə sektorunun əməkdaşı İlkin Şərifov iştirak ediblər.***

Konfransda çıxış edən BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun əməkdaşı İlkin Şərifov müasirləşən dövrdə karyera inkişafı strukturlarının vacibliyini vurğulayaraq qeyd edib ki, Universiteti bitirən məzunların əmək bazarında öz yerini tutması rəqabətədavamlılığın artırılması istiqamətində son illər aparılan maarifləndirmə işləri öz müsbət nəticələrini göstərir. İ.Şərifov çıxışında BDU-da bu istiqamətdə həyata keçirilən layihələrdən, tələbələrin əmək bazarına hazırlıqlarının təmin edilməsi istiqamətində keçirilən təlimlərdən bəhs edib, karyera planlanması haqqında keçirilən maarifləndirici seminarların əhəmiyyətini vurğulayıb.

Konfransda gənclərin cəmiyyətimizin aparıcı qüvvəsinə çevrilməsi üçün ölkə rəhbərliyi tərəfindən mühüm addımlar atıldığı qeyd olunub. Azərbaycan gəncliyi, Yoxsulluğun azaldılması və davamlı inkişafı üzrə regionların sosial-iqtisadi inkişafı, Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramları və digər mühüm sənədlər qəbul olunaraq həyata keçirildiyi konfrans iştirakçılarının diqqətinə çatdırılıb.

# BDU-da Himayəçilər Şurasının növbəti iclası keçirilib

***Noyabrın 2-də Bakı Dövlət Universitetinin Himayəçilər Şurasının növbəti iclası keçirilib. İclas öz işinə başlamazdan əvvəl Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

BDU Himayəçilər Şurasının sədri, Azərbaycan Respublikasının təhsil naziri Emin Əmrullayev Himayəçilər Şurasının fəaliyyəti, gündəlikdəki məsələlər barədə məlumat verib. Nazir çıxışında təhsil sahəsində aparılan islahatlardan danışıb, ali təhsil sistemi ilə bağlı mövcud pandemiya şəraitində görülmüş işlərə, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinin gücləndirilməsi ilə əlaqədar həyata keçirilən mühüm tədbirlərə toxunub.



İclasda 2021-2030-cu illər üçün BDU-nun Strateji İnkişaf Planı, tədris prosesinin təşkili, tədqiqat və innovasiyalar üzrə görülən işlər və cari məsələlər müzakirə edilib.

BDU-nun rektoru Elçin Babayev məruzə ilə çıxış edərək 2021-ci ildə BDU-nun fəaliyyəti, BDU-da təhsil, elm, innovasiyalar, sosial layihələr, beynəlxalq əməkdaşlıq sahəsində görülmüş işlər haqqında məlumat verib. Rektor BDU-da COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, 2021-ci ildə tədris prosesinin təşkili, beynəlxalq ikili diplom proqramlarının fəaliyyətə başlaması, xarici mütəxəssislərin BDU-da tədris prosesinə cəlb olunması, yeni akademik mühitin yaradılması, elmi fəaliyyətin təkmilləşdirilməsi, əməkdaş və tələbələrin sosial rifahının qorunması istiqamətində görülmüş işlər haqqında məruzə edib.

İclasda 2021-2030-cu illər üçün BDU-nun Strateji İnkişaf Planı ətraflı müzakirə edilib. Gündəlikdəki məsələlər üzrə müzakirələrdə Şura üzvləri öz fikir və təkliflərini bildiriblər.

Məlumat üçün bildiririk ki, Himayəçilər Şurası ali təhsil müəssisələrinin inkişafına yardım edən, ictimai əsaslarla fəaliyyət göstərən strukturdur. Himayəçilər Şurasının səlahiyyətlərinə BDU-nun strateji inkişaf proqramını təsdiq etmək, Universitetin fəaliyyət istiqamətlərinə nəzarət etmək, elm-təhsil-innovasiya mərkəzi kimi inkişaf etməsinə, fundamental, nəzəri-metodoloji, pedaqoji-metodik və tətbiqi elmi layihələrin həyata keçirilməsinə, beynəlxalq əlaqələrinin qurulmasına dəstək vermək kimi məsələlər daxildir.

# "1 millət 6 dövlət - Ortaq media" adlı onlayn Beynəlxalq sosial və humanitar elmlər konfransı keçirilib

***Noyabrın 18-də Jurnalistika fakültəsi və İKSAD (İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutu) ilə birgə "1 millət 6 dövlət - Ortaq media (Türkdilli dövlətlərin media platforması)" adlı onlayn Beynəlxalq sosial və humanitar elmlər konfransı keçirilib.***

Konfransı BDU-nun Jurnalistika fakültəsinin Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, konfransın sədri, professor Allahverdi Məmmədli açıb. Konfransın Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı zəfərin bir illiyinin qeyd edildiyi günlərdə öz işinə başladığını vurğulayan Allahverdi Məmmədli, Türk Dövlətləri Təşkilatının İstanbulda VIII Zirvə görüşündən də söz açıb. Bildirib ki, XXI əsrin 20-ci illəri türk dövlətlərinin siyasi, iqtisadi, sosial, mədəni sahədə inkişafı, bir-birinə və dünya çapına inteqrasiyası, çoxqütblü dünyada günü-gündən möhkəmlənən mövqeyi ilə xarakterizə olunur. "1 millət 6 dövlət Ortaq media" (Türkdilli dövlətlərin media platforması) adlı konfransın bu işlərə ilkin vəsilələrdən biri olacağını bildirən



A.Məmmədli onun işinə uğurlar arzulayıb.

Konfransda fakültənin professor heyəti Cahangir Məmmədli, Həmid Vəliyev, Qulu Məhərrəmli, Sabir Məmmədli, İzzet Baysal Universitetinin Halkla İlişkiler və Tanıtım fakültəsinin professoru Himmet Karadal, Qlobal Jurnalistika Konseyinin sədri Mehmet Ali Dim, SODIMER təşkilatının sədri, professor doktor Levent Eraslan, "Yazar" qəzetinin Genel Yayın redaktoru, doktor Servet Avşar, Dünya İletişimciler Cəmiyyətinin sədri, doktor Şemsettin Kuzeci, Jandarma və Sahil Mühafizə Akademiyası Təhlükəsizlik Elmləri İnstitutu müdiri dosent Tekin Avaner çıxış edib, "1 millət 6 dövlət Ortaq media (Türkdilli dövlətlərin media platforması)" konfransını yüksək qiymətləndiriblər.

Konfransın Elm və Məsləhət Şurasında sədr Jurnalistika fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru Vüqar Əliyev olmaqla, BDU və Türkiyənin müxtəlif universitetlərindən ümumilikdə 38 əməkdaş, təşkilat komitəsində isə sədr "Jurnalistika" Elmi Tədqiqat Laboratoriyasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Aytəkin Zeynalova olmaqla fakültənin professor-müəllim heyəti və əməkdaşlar təmsil olunub.

Konfransa Azərbaycan, Türkiyə, Filippin, Meksika, Mərakeş, İndoneziya, Ruminiya, Qırğızıstan, Qazaxıstandan 186 nəfər professor-müəllim heyəti məqalə təqdim edib. 2021-ci ilin 17 noyabr tarixində başlayan və 2 gün davam edən konfrans 4 panel və hər panel 9 salondan ibarət olmaqla təşkil edilib. Panellərə Jurnalistika fakültəsinin professorları Qulu Məhərrəmli, Sabir Məmmədli, dosentlər Sevinc Əliyeva, Aynur Nəsirova, Təranə Mahmudova, Pərvanə İbrahimova, Aygün Əzimova, Aytəkin Zeynalova rəhbərlik ediblər. Fakültə ilə yanaşı Türkiyə universitetlərinin professor – müəllim heyəti də panel rəhbərləri kimi iştirak ediblər.

Türkiyənin Harran Universitetinin Coğrafiya fakültəsinin professoru Veysi Günal və Mehmet Akbıyık konfrans BDU-dan qoşulub, çıxış edib və sertifikatla təltif olunublar. Eyni zamanda, İKSAD təşkilatının Azərbaycan üzrə koordinatoru Əlvan Cəfərov Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyevə, kafedra müdiri Allahverdi Məmmədliyə və "Jurnalistika" ETL-in müdiri Aytəkin Zeynalovaya konfransın, elm və məsləhət şurasının, təşkilat komitəsinin sədrləri kimi təşəkkür plaketini təqdim edib.

"Jurnalistika" Elmi Tədqiqat Laboratoriyasının elmi işçiləri Afaq Sadıqova, Günay Məmmədova, Nigar Ağayeva və Güney Mahmudova Təşkilat komitəsinin üzvləri olaraq təşəkkür sertifikatı ilə təltif olunublar.

# Malayziya ilə ali təhsil sahəsində əməkdaşlıq imkanları müzakirə edilib

***Noyabrın 19-da Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin və Azərbaycanın Malayziyadakı səfirliyinin birgə təşkilatçılığı ilə Malayziyanın "Universiti Teknologi MARA" (UiTM) ali təhsil müəssisəsi ilə Azərbaycanın ali təhsil müəssisələri arasında mümkün əməkdaşlıq imkanlarının müzakirəsi məqsədi ilə ilk onlayn tanışlıq görüşü keçirilib.***

Onlayn görüşdə Azərbaycan tərəfindən ölkəmizin Malayziyadakı fövqəladə və səlahiyyətli səfiri İrfan Davudov, Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq, Elm, ali və orta ixtisas təhsili şöbələrinin müdirləri, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Bakı Mühəndislik Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Manafəddin Namazov və Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Malayziya tərəfindən isə UiTM-in vitse-kansleri Hajah Roziah Mohd Janor, Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Hajah Zainab Haji Mohd Noor, dekanlar və digər əməkdaşlar iştirak ediblər.

BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov çıxışında BDU-nun tarixindən, ötən illərlə müqayisədə beynəlxalq əlaqələrin inkişaf etdiyindən söhbət açıb, çox tanınmış dünya universitetləri ilə əməkdaşlığın genişləndiyini nəzərə çatdırıb. Görüş çərçivəsində universitetin elmi-tədqiqat mərkəzləri, laboratoriyaları haqqında məlumat verib, BDU-da xarici tələbələr üçün yaradılan şəraitdən bəhs edib.

Görüşdə hər iki tərəf təqdimatla çıxış edib, tibb, bərpa olunan enerji, hüquq, texnologiya və digər ixtisaslar üzrə mümkün əməkdaşlıq imkanlarını, o cümlədən ikili diplom proqramlarının təsis edilməsini, tələbə-müəllim heyətinin mübadiləsini və birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsini müzakirə ediblər.

# "Rossotrudniçestvo" təşkilatının nümayəndə heyəti BDU-da olub

***Noyabrın 18-də "Rossotrudniçestvo" təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri Bakı Dövlət Universitetinin qonağı olub.***

Görüşdə BDU-nun rektoru Elçin Babayev Azərbaycan və Rusiya arasında elm və təhsil, mədəni-humanitar sahələrdə əməkdaşlıq münasibətlərindən bəhs edib. Rusiya ali təhsil müəssisələri ilə əlaqələrin inkişaf perspektivləri haqqında danışıb. "Russkiy mir" Fondunun BDU-da açdığı Rus Mərkəzinin fəaliyyəti haqqında ətraflı məlumat verərək mərkəzin Universitetin həyatında, xüsusilə tələbələr arasında rus dili və ədəbiyyatının, mədəniyyətinin təbliğində əhəmiyyətli rol oynadığını vurğulayıb. Daha sonra rektor Rusiya universitetləri ilə BDU arasında elm və təhsil sahəsindəki qarşılıqlı faydalı əlaqələrin inkişaf etdirilməsi üçün əməli addımlar atıldığını bildirib.

"Rossotrudniçestvo" təşkilatının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri İrek Zinnurov BDU-nun Rusiya ali məktəbləri, elm və təhsil mərkəzləri ilə elmi-humanitar əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirib. BDU-nun Rus Mərkəzi ilə "Rossotrudniçestvo" təşkilatının sıx əlaqələrindən məmnunluğunu ifadə edərək Azərbaycan universitetlərinin flaqmanı olan BDU ilə əməkdaşlığın, birgə layihələrin genişləndiriləcəyinə əminliyini ifadə edib.

Görüşdə həmçinin mədəni-humanitar sahədə əməkdaşlığın perspektivləri, BDU və Rusiya universitetləri arasında ikili diplom layihələri, eləcə də birgə elmi-tədqiqat layihələrinin hazırlanması haqqında fikir mübadiləsi aparılıb.

Daha sonra qonaqlar Universitetin Rus Mərkəzi və Elmi Kitabxanası ilə tanış olublar.

# "Vətən müharibəsində tarixi Zəfərin hüquqi, tarixi və iqtisadi müstəvidə təhlili" mövzusunda konfrans keçirilib

***Noyabrın 5-də Bakı Dövlət Universitetində 8 Noyabr - Zəfər Gününə həsr edilmiş Beynəlxalq onlayn konfrans keçirilib. Konfransda BDU-nun rəhbərliyi, Hüquq, Tarix və Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültələrinin müəllim kollektivi, doktorant, magistrant və tələbələri, xarici qonaqlar iştirak ediblər.***

Giriş sözü ilə çıxış edən BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov Şanlı Azərbaycan Ordusunun 44 günlük Zəfər yürüşündə Azərbaycanın işğalçı Ermənistan üzərində tarixi qələbəsini şərtləndirən amillər içərisində əsas diqqəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti, qəti iradəsi və yüksək idarəçilik qabiliyyətinə, Azərbaycan əsgər və zabitlərinin torpaq sevgisi və qəhrəmanlığına, müharibə dövründə iqtidar-xalq-ordu birliyinin böyük əhəmiyyəti və onun ən böyük nəticəsi olan Vətən müharibəsində Şanlı Zəfərin əldə olunmasına yönəldib. Bu qələbədə Azərbaycan gəncliyinin, o cümlədən, BDU məzunlarının da öz payının olmasını qürurla qeyd edən natiq, Qarabağ müharibəsində şəhid olmuş qəhrəmanların əziz xatirəsinin Azərbaycan xalqının qəlbində daim yaşayacağını bildirib.

Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru İbrahim Zeynalov "Qalib sərkərdə, məğlubedilməz ordu, qəhrəman xalq", Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı keçmiş hərbi attaşesi, Türkiyə Ordusunun ehtiyatda olan generalı Yücel Karauz "30 yılda Zafere giden yol. Siyasi ve askeri liderlik", Pakistanın Azərbaycandakı səfiri Bilal Hayee "What the victory in Karabakh means: ways forward", BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müdiri Əmir Əliyev "Vətən müharibəsində qələbənin beynəlxalq hüquq üçün əhəmiyyəti", Ukrayna Milli Aviasiya Universitetinin professoru Arif Quliyev "Vətən müharibəsində qələbənin əldə olunmasında Azərbaycan diplomatiyasının rolu", BDU-nun Dünya İqtisadiyyatı (humanitar fakültələr üzrə) kafedrasının professoru Hacıağa Rüstəmbəyov "Azərbaycanın Qarabağ zəfərinin iqtisadi-siyasi amilləri" mövzusunda çıxış ediblər.

600 nəfərdən çox iştirakçının dərin marağına səbəb olan konfrans maraqlı müzakirələrlə yadda qalıb.

# "Dövlətçilik və şəxsiyyət" mövzusunda Respublika elmi-praktik konfransı keçirilib



***Noyabrın 5-də Sosial elmlər və psixologiya fakültəsinin Sosial və pedaqoji psixologiya kafedrasının yaranmasının 10 illiyinə həsr olunmuş "Dövlətçilik və şəxsiyyət" mövzusunda Respublika elmi-praktik konfransı keçirilib.***

Sosial və pedaqoji psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor Kamilə Əliyeva plenar iclası açıq elan edib, onun işinə uğurlar arzulayıb.

Konfransın moderatoru Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi Diyanə İbrahimova mövzunun aktuallığından bəhs edərək millətin inkişafında dövlətçilik və şəxsiyyət amilinin rolunun kifayət qədər yüksək olmasını, hər bir cəmiyyətin müxtəlif dövrlərdə görkəmli şəxsiyyətlər yetişdirməsini, bu şəxsiyyətlərin milli dövlətçiliyin və mənsub olduqları cəmiyyətin inkişafında müstəna rol oynadığını vurğulayıb. Bu münasibətlərin hazırkı dövrdə də aktual olmasını və müasir yanaşmalar baxımından araşdırılmasının maraqlı olmasını diqqətə çatdırıb.

Tədbirdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının Psixologiya kafedrasının baş müəllimi İ.Sultanovanın "Əbdül Əlizadənin üçtərkibli taksonomiyasında şəxsiyyətin polimədəni inkişaf məsələləri", BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi Ş.Aslanovanın "Şəxsiyyətin dəyərlər sisteminin formalaşmasına təsir göstərən etnik-psixoloji amillərin təhlili", Sumqayıt Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasının dosenti A.Hacıyevanın "Şəxsiyyətin inkişafına emosiyaların təsirinin təhlili", BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi M.Eyyubovanın "Şəxsiyyətin cəmiyyətə adaptasiyanın sosial-psixoloji aspektləri", Əmək və əhalinin sosial müdafiəsi nazirliyi yanında Dövlət məşğulluq agentliyinin böyük məsləhətçisi X.Rzanın "Vətən müharibəsi Azərbaycan mediasında" mövzularında məruzələri dinlənilib.

Qeyd edək ki, konfransda müxtəlif universitetlərdən professor-müəllim heyəti, doktorantlar və magistrantlar iştirak ediblər.

Tədbirin sonunda BDU-nun Elm fəaliyyətinin təşkili və İnnovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov çıxış edərək Sosial və pedaqoji psixologiya kafedrasının yaranmasının 10 illiyi münasibətilə kafedra əməkdaşlarını təbrik edib.

# Prezident Kitabxanasının direktoru BDU-da ustad dərsi keçib

***Noyabrın 19-da Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Mayıl Əhmədov Kitabxanaçılıq-informasiya fakültəsində "Kitabxana menecmentinə verilən müasir tələblər" mövzusunda ustad dərsi keçib.***

Mayıl Əhmədov əvvəlcə son dövrlər Bakı Dövlət Universitetində təşkil olunan ustad dərslərini yüksək qiymətləndirdiyini bildirib. O, Ulu Öndər Heydər Əliyevin hər zaman kitabxana işinə böyük dəyər verdiyini vurğulayaraq müdrik rəhbərin "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir!" kəlamını diqqətə çatdırıb.

Mayıl Əhmədov mühazirəsində əvvəlcə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası haqqında, onun kadr potensialı, maddi-texniki bazası, perspektivləri və hədəfləri barədə ətraflı məlumat verib. Prezident Kitabxanasında BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin xeyli məzununun çalışdığını diqqətə çatdıran natiq gələcəkdə də kadrların yerləşdirilməsində fakültənin məzunlarının xüsusi rol oyanayacaqlarına əminliyini bildirib.

Mühazirədə qlobal informasiya mühitində kitabxana menecmentinə verilən müasir tələblər, informasiya konsaltinqi və logistikası kimi mühüm istiqamətlər şərh edilib, kitabxanaların fundamental funksiyalarının həyata keçirilməsində sistemli yanaşmanın vacibliyi elmi-metodoloji cəhətdən əsaslandırılıb. Modern kitabxanaçı-biblioqrafın siması, onun elmi-mədəni səviyyəsi, oxucu-kitabxanaçı ünsiyyətinin psixoloji-pedaqoji çalarları da mühazirədə öz əksini tapıb.

Ustad dərsi auditoriya tərəfindən maraqla dinlənilib, Mayıl Əhmədov dinləyicilərin mövzu ilə bağlı çoxsaylı suallarını cavablandırıb.

# Jurnalistika fakültəsinin dekanı Beynəlxalq Türk Akademiyasının tədbirində çıxış edib

***Noyabrın 19-da Qazaxıstan Respublikasının müstəqilliyinin 30-cu ildönümü və 1 dekabr - Birinci Prezident günü bayramları çərçivəsində dövlət və elm xadimlərinin iştirakı ilə "Elbaşı" - Türk inteqrasiyasının memarı" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib.***

Beynəlxalq Türk Akademiyası və Qazaxıstan Respublikasının İnformasiya və Sosial İnkişaf Nazirliyi ilə birlikdə təşkil edilən onlayn konfransda Türk Akademiyasının başqanı Darkan Kydyrali, informasiya və sosial inkişaf nazirinin müavini Askar Omarov, Hoca Ahmet Yesevi Qazax-Türk Universitetinin rektoru Janar Temirbekova, Nursultan Nazarbayev Vəqfi baş direktorunun müavini Alkey Margulanulı, Bozox Universiteti İdarəetmə və iqtisadi elmlər fakültəsinin dekanı Kürşad Zorlu, Qazaxıstan, Azərbaycan, Türkiyə, Tatarıstan (Rusiya), Başqırdıstan (Rusiya), Qırğızıstan, Özbəkistan və Monqolustandan tanınmış elm xadimləri çıxış ediblər.

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev konfransın plenar iclasında "Vahid Türk İnformasiya Məkanının formalaşdırılması və mövcud təhdidlər" mövzusunda təqdimatla çıxış edib. Çıxışda Türk cümhuriyyətləri üçün vahid informasiya məkanının formalaşmasının vacibliyi vurğulanıb. Qeyd edilib ki, vahid informasiya məkanının yaradılması kənar müdaxilələrin və yanlış informasiyaların qarşısının alınmasında ciddi və əhəmiyyətli rol oynayacaq.

# BDU-da "Vətən bölünməz" adlı tədbir keçirilib

***Noyabrın 4-də Hüquq fakültəsi və Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının birgə təşkilatçılığı ilə "Vətən bölünməz" adlı tədbir keçirilib.***

Tədbirdə əvvəlcə Dövlət Himnimiz səsləndirilib, sonra Vətən müharibəsində şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Hüquq fakültəsinin sosial məsələlər üzrə dekan müavini Aytəkin İbrahimovanın moderatorluğu ilə keçirilən tədbirdə fakültənin dekan vəzifəsini icra edən Cabir Quliyev, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Kursant Elmi Cəmiyyətinin sədri Namiq Məhərrəmov, Cinayət prosesi kafedrasının müdiri Firuzə Abbasova, Cinayət hüququ və kriminologiya kafedrasının müdiri Şəhla Səmədova çıxış edərək Vətən müharibəsində qazanılmış parlaq qələbə münasibətilə təbrik nitqləri səsləndiriblər. Natiqlər həmçinin ən yeni tariximiz, Ermənistanın Azərbaycana qarşı uzun illər davam edən hərbi təcavüzü, Qarabağın erməni işğalından azad olunması və beynəlxalq hüquq normalarına zidd əməllərin, cinayətlərin törədilməsi barədə məlumat veriblər.

Tədbirdə Hüquq fakültəsi Tələbə Gənclər Təşkilatının İdarə Heyəti üzvləri - Siyavuş Bağırov, Gülsüm Hacıyeva və Cavid Mirzəzadə, eyni zamanda, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Kursant Elmi Cəmiyyətinin fəal üzvləri çıxış ediblər. Çıxışlarda 8 noyabrda Şuşaya sancılan ay-ulduzlu üçrəngli bayrağın şəhid qanıyla bütövləşən vətən torpaqlarının bölünməzliyinin simvolu olduğu, "Dəmir yumruq" əməliyyatının ölkəmizdəki xalq-dövlət-ordu birliyini bütün dünyaya nümayiş etdirdiyi və bu ifadənin tək Azərbaycan xalqının deyil, bütövlükdə Türkiyə-Azərbaycan qardaşlığının və dostluğunun mücəssəməsinə çevrildiyi vurğulanıb. Azərbaycan ordusunun və onun müzəffər Ali Baş Komandanının qətiyyəti və xalqın inamı tarixi zəfəri şərtləndirən başlıca amillərdən olduğu diqqətə çatdırılıb.

Sonda Hüquq fakültəsinin birinci kurs tələbələri - Səfər Məmmədov və Rəhimə Ağayeva müəllifləri olduqları şeirləri səsləndiriblər.

# "Müxtəlif reaksiya parametrlərinin Ag gümüş nanonaqillərinin sintezi və xüsusiyyətlərinə təsiri" mövzusunda elmi seminar



Noyabrın 11-də Nanoaraşdırmalar Elmi-Tədqiqat Mərkəzində növbəti elmi seminar keçirilib. Elmi seminarda laboratoriyanın böyük elmi işçisi Sevinc Nuriyeva "Müxtəlif reaksiya parametrlərinin Ag gümüş nanonaqillərinin sintezi və xüsusiyyətlərinə təsiri" mövzusunda məruzə ilə çıxış edib.

Sevinc Nuriyeva Ag gümüş nanonaqillərinin alınması üçün modifikasiya edilmiş poliol metodu, sintez edilən 1D nanoobyektlərin quruluşu və optik xüsusiyyətləri haqqında məlumat verib, həmçinin müxtəlif reaksiya parametrlərinin alınan məhsulların morfologiyası və strukturuna təsiri məsələsindən bəhs edib.

Seminarın sonunda məruzəçi iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıb.

# Anhui Universitetinin professoru Denq Şu Şərqşünaslıq fakültəsində ustad dərsi keçib

Şərqşünaslıq fakültəsində BDU-nun nəzdindəki Konfutsi İnstitutu, Anhui Universiteti və BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin birgə təşkilatçılığı ilə "Çin ənənəvi romanları" mövzusunda onlayn ustad dərsi keçirilib.

Tədbirdə fakültənin elmi işlər üzrə dekan müavini Nigar İsmayılzadə Şərqşünaslıq fakültəsində mütəmadi olaraq ustad dərslərinin keçirilməsinin ənənə halını alması və çin dili, ədəbiyyatı, tarixi və mədəniyyəti haqqında mühazirələr oxunmasının fakültənin çin dili ixtisası üzrə təhsil alan tələbələri üçün önəmindən danışıb.

Sonra Anhui Universitetinin professoru Denq Şu ustad dərsi keçib. O, klassik çin ədəbiyyatından dövrümüzə gəlib çatan "dörd böyük roman" adlanan ənənəvi roman xəzinəsi barədə geniş məlumat verib. Professor Denq Şu bu romanların sırasına "Üç çarlıq" (Lo Qua-çjun, XIV əsr), "Çayların kiçik körfəzləri" (Şi Nay-an, XIV əsr), "Qərbə səyahət" (U Çen-en, XVI əsr) və "Tszin, Pin, Mey" (naməlum müəllif, təxəllüsü - Lanlinli Rişxəndçi, XVI əsr) romanlarının daxil edildiyini qeyd edib. Eyni zamanda bu romanların müəlliflərinin şifahi xalq ədəbiyyatına məxsus xalq rəvayətlərindən bəhrələnməsini vurğulayıb. Qeyd edək ki, adıçəkilən məşhur romanlardan hər biri sonralar çin ədəbi nəsrində müvafiq janr növlərinin yaranmasına səbəb olub.

Çin ənənəvi romanları haqqında məruzə fakültənin tələbələri və professor-müəllim heyəti tərəfindən böyük maraqla dinlənilib.

## Daşkənd Dövlət Şərqşünaslıq İnstitutunun professoru Şarustam Şamusarov mühazirə oxuyub

Şərqşünaslıq fakültəsi və Daşkənd Dövlət Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə "Müasir ərəb ədəbi dilində alınma sözlər" mövzusunda ustad dərsi keçirilib. Daşkənd Dövlət Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası kafedrasının müdiri professor Şarustam Şamusarov müasir ərəb dilində istifadə olunan alınma sözlərə dair problemə geniş şərh verib, öz yanaşma tədqiqat metodu haqqında ətraflı bəhs edib.

Sonra BDU-nun Ərəb filologiyası kafedrasının professoru Nəsrulla Məmmədov və dosent Vüqar Qaradağlı mövzu ilə bağlı çıxış ediblər.

Tədbirin sonunda Şərqşünaslıq fakültəsinin elmi işlər üzrə dekan müavini Nigar İsmayılzadə və Daşkənd Dövlət Şərqşünaslıq İnstitunun Beynəlxalq reytinqlər üzrə şöbəsinin koordinatoru Nilufər İmomova belə elmi disputların elmi müəssisələr arasında əlaqələrin inkişafına xidmət etdiyini qeyd ediblər.

Ustad dərsinin sonunda bu cür tədbirlərin davamlı təşkil edilməsi ilə bağlı razılıq əldə olunub.

# Elmi seminarda insan orqanizminin xronobiologiyası müzakirə edilib

***Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunun Biofizika şöbəsinin aparıcı elmi işçisi Rövşən Musayev "Bioritm və insan orqanizminin xronobiologiyası" mövzusunda məruzə ilə çıxış edib.***

Əməkdaşların və gənc tədqiqatçıların iştirakı ilə keçirilən elmi seminarda insan orqanizminin bioritmini idarə edən xarici təsirlərin parametrlərinin rolu üzrə müzakirələr aparılıb. İnsan orqanlarının və onun hüceyrələrinə rezonans vaxtı xarici təsirlərin daha güclü olduğu göstərilib.

# Akademik Rafael Hüseynov Şərqşünaslıq fakültəsində ustad dərsi keçib



Noyabrın 5-də Şərqşünaslıq fakültəsində qədim Şərqin elm, fəlsəfə dünyasının böyük ustadı - filosof, şair, riyaziyyatçı Ömər Xəyyamın rübailərinin təhlilinə həsr olunmuş növbəti ustad dərs keçirilib.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, millət vəkili, professor Rafael Hüseynov "Klassik mətnin Xəyyam paradoksu: aidetmə ilə gerçək sahibliyin yaygın sərhədləri" adlı məruzəsində müasir şərqşünaslığın bir sıra aktual problemlərinə toxunub. Məruzəçi XII əsrin görkəmli mütəfəkkiri Ömər Xəyyamın dünya vətəndaşı sayılan klassiklər zümrəsinə daxil olmasından danışıb, onun böyük riyaziyyatçı, astronom, filosof və bir sıra digər elm sahəsində dərin biliklərə malik, bu istiqamətlərin hər birində qiymətli əsərlər yaratmış şəxsiyyət olmasından bəhs edib.

Akademik Rafael Hüseynov Ömər Xəyyamın ədəbiyyat nümayəndəsi olması və bu gün dünyada bir alimdən daha çox məhz bir şair kimi şöhrət qazandığına diqqət çəkib. Qeyd edib ki, alimlərin araşdırmalarına görə, Ömər Xəyyamın həqiqi poetik irsi 300-400 rübaidən ibarətdir. Lakin paradoks bundan ibarətdir ki, hazırda ona aid edilən rübailərin miqdarı 5000-dən artıqdır. Natiq müasir mətnşünaslığın problemləri kontekstində bu məsələ ilə bağlı geniş məlumat verib.

Ustad dərsi tələbə və müəllimlərin çoxsaylı sualları və mülahizələri ilə davam edib.

## Rusiyalı alim BDU-da keçirilən elmi seminarda məruzə ilə çıxış edib

Noyabrın 2-də Bakı Dövlət Universitetinin nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunda keçirilən elmi seminarda Rusiya Elmlər Akademiyasının A.A.Xarkeviç adına İnformasiyanın Ötürülməsi Problemləri İnstitutunun Paylanmış hesablamalar Mərkəzinin müdiri, professor Afanasyev Aleksandr Petroviç "Qabarıq və qabarıq olmayan istehsal vahidlərinin təhlili və performansının idarə edilməsi üçün çoxölçülü vizuallaşdırma üsulları" mövzusunda məruzə ilə çıxış edib.

Məruzədə universitetlər, maliyyə institutları, xəstəxanalar və s. kimi müəssisələrin sosial-iqtisadi vahidlərinin səmərəliliyinin təhlili və idarəetmə fəaliyyəti üçün geniş istifadə olunan riyazi metodlar və modellərdən bəhs olunub. Qeyd edilib ki, təklif olunan üsul əsasında istehsal vahidi üçün əmsallar dəsti təqdim edilir və bu əmsallar bəzi çəkilərlə əlavə edilərək hər bir vahidin işini qiymətləndirmək üçün reytinq funksiyası müəyyən edilir.

Seminarda institutun əməkdaşları və Marağa Universitetinin Riyaziyyat bölməsinin professoru Ali Şükrü, Atatürk Universitetinin Riyaziyyat bölməsinin professorları Ahmet Ocak Akdemir və Erhan Set iştirak ediblər.

## BDU-da böyrək xəstəliklərinin diaqnostikasında podositlərdən istifadə üzrə elmi-tədqiqatlar uğurla davam edir

Biofizika və biokimya kafedrasının müdiri vəzifəsini icra edən, professor Rövşən Xəlilovun həmmüəllifi olduğu "Migrasomes and exosomes; different types of messaging vesicles in podocytes" ("Miqrasomlar və ekzosomlar; podositlərdə müxtəlif növ əlaqə vezikulları") adlı icmal məqalə Web of Science bazasına daxil olan (Q3 kvartil kateqoriyalı, IF: 3.612) "Cell Biology International" jurnalında çap olunub.

Məqalədə podositlərdən əldə edilən hüceyrədənkənar vezikullar və onlardan müxtəlif böyrək xəstəliklərinin diaqnostikasında istifadə olunmasından bəhs edilir. Mövcud elmi nəticələr əsasında müəyyən olunmuşdur ki, qlomerulyar pozuntuların erkən mərhələlərində böyrəkdə podositlərdən əmələ gələn hüceyrədənkənar vezikülların səviyyəsi artır.

# "Karyeraya yeni baxış" mövzusunda təlim keçirilib

***Noyabrın 22-də Bakı Dövlət Universitetində tələbələrə karyera planlamasına dair seminar keçirilib.*** BDU-nun Karyera və məzunlarla iş sektorunun əməkdaşı İlkin Şərifov seminar iştirakçılarına mərkəzin fəaliyyət istiqamətlərindən, mərkəzləşdirilmiş məlumat bazasının yaradılmasından, işlə bağlı müraciətlərin idarə olunmasından, uğur əldə etmiş iş adamları ilə görüşlərin təşkilindən, peşəkar məsləhətlərin verilməsindən, universitetdaxili və xarici qrumlarla münasibətlərdən danışıb. Bildirib ki, bu mərkəz tələbələrin gələcəkdə uğurlu karyera qurmalarına yardım edən struktur bölmədir. Mərkəzin fəaliyyətinin əsas istiqaməti tələbələrin və məzunların məşğulluğunun təmin olunmasına dəstək göstərmək və kömək etməkdir.



Türkiyə Respublikasının Qazi Universitetinin məzunu, karyera planlayıcı, motivasiya, ünsiyyət, sosial psixologiya üzrə mütəxəssis Samir Məmmədov karyera qurmasında əldə etdiyi təcrübəni tələbələrlə bölüşüb. Qeyd edib ki, bu günə qədər 100-ə yaxın yerli, regional və beynəlxalq layihələrdə iştirakçı və təşkilatçı kimi fəaliyyət göstərib. O, şəxsi karyerası və rəhbərlik etdiyi şirkətin fəaliyyəti haqqında seminar iştirakçılarına məlumat verib. Bildirib ki, uğurlu karyeranın başlanğıcı universitetdə yüksək təhsil almaqdır. Bununla yanaşı, könüllü təcrübə proqramlarının əhəmiyyətinə diqqət çəkən S.Məmmədov qeyd edib ki, uğurlu karyeraya gedən yolda ali təhsillə yanaşı, şəxsi keyfiyyətlər, sosial bacarıqlar, ünsiyyət və danışıq qabiliyyəti də böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən tələbələr təhsil müddətini səmərəli keçirməli və öz üzərilərində çox işləməlidirlər. Uğurlu karyeraya nail olmaq istəyən gənclər onun bünövrəsini tələbəlik dövründə qoymalıdırlar.

Qeyd edək ki, BDU-da belə seminarların mütəmadi keçirilməsi nəzərdə tutulub.

## Nizami irsinə həsr olunmuş yarış keçirilib

***Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Şərqşünaslıq fakültəsində Nizami Gəncəvi ilinə həsr olunmuş Xəmsə yarışması turnirinə start verilib.***

Tədbirdə Şərqşünaslıq fakültəsinin dekanı vəzifəsini icra edən Tərlan Məlikov və fakültənin dekan müvaini Şahin Yusifli çıxış edərək gənclərə Nizami Gəncəvinin yaradıcılığı barədə ətraflı məlumat verib, gənclərin Nizami Gəncəvi yaradıcılığına olan marağını yüksək qiymətləndiriblər.

Daha sonra tələbələrin böyük maraq və həyəcanla izlədikləri yarımfinal mərhələsində finala vəsiqə qazanan iştirakçıların adları açıqlanıb və növbəti həftədə isə final turnirinin keçiriləcəyi bildirilib.

## Bakı Dövlət Universitetinin Enactus komandası Danimarkada keçirilən finalda yarışır

***Xəbər verdiyimiz kimi, Bakı Dövlət Universitetinin Enactus komandası "Ecoprint" layihəsi ilə 2021-ci ilin 15-18 noyabr tarixlərində Danimarka Krallığında (Kopenhagen) keçirilən, 113 ölkənin yarışdığı Global Startup Awards mükafatları yarışmasının "Grand Final" iştirakçısı vəsiqəsini qazanıb.***




"Grand Final"da iştirak üçün komanda üzvlərindən 4 nəfər - Texnologiyaların Transferi və İnnovasiyalar şöbəsinin müdiri, layihə rəhbəri Mətanət Musayeva, Bioekologiya kafedrasının dosenti, layihə koordinatoru Məhluqə Yusifova, komanda kapitanı Rüstəm Həsənli və informasiya texnologiyaları mütəxəssisi Kamran Qasımov 2021-ci ilin 15-18 noyabr tarixlərində Danimarka Krallığında (Kopenhagen) keçirilən müsabiqədə iştirak ediblər.

Final yarışının ilk günündə "Yaşıl liderlik!", "Yaşıllaşdırmada kommunikasiya" və "Yaşıl investisiyalarda risklərin qiymətləndirilməsi" panellərində müxtəlif ölkələrdən startup və şirkət yaradıcıları öz təcrübələrini bölüşüb, tədbirə qatılmış layihələr haqqında fikir mübadiləsi aparılıb. BDU-nun EcoPrint layihəsi finalda 2 nominasiya üzrə yarışıb. Finalda "Best Vertical Startup" nominasiyasında 12 ölkənin, "Best Green Tech Startup" nominasiyasında isə 23 ölkənin komandaları yarışıb.

## BDU-nun 2 alimi "World's Top 2% Scientists" reytinq siyahısında yer alıb

***ABŞ-ın Stenford Universiteti hər il ənənəvi olaraq "Dünyanın ən nüfuzlu alimlərinin 2%-i" (World's Top 2% Scientists) reytinq siyahısını tərtib edir. 2021-ci il üçün tərtib olunmuş siyahıda müxtəlif elm sahələri üzrə dünyanın 149 ölkəsindən 190064 alim yer alıb. Onlardan 25-i dünyanın müxtəlif nüfuzlu universitetlərində çalışan azərbaycanlı alimlərdir.***

Bakı Dövlət Universitetinin 2 alimi - BDU-nun nəzdində Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunun Nəzəri fizika şöbəsinin müdiri Şahin Ağayev və BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Ekoloji kimya və ətraf mühitin mühafizəsi Elmi-Tədqiqat Laboratoriyasının aparıcı elmi işçisi Kamran Mahmudov da reytinq siyahısına daxil edilib.

Reytinq siyahısı ELSEVIER şirkətinin SCOPUS bazasının məlumatları əsasında tərtib olunur. Alimin il ərzində SCOPUS bazasına daxil olan jurnallarda dərc olunmuş məqalələrinin sayı, il ərzində məqalələrə istinadların sayı, alimin h-indeksi, özü-özünə istinadlar və istinad sayının istinad edilən məqalələrin sayına olan nisbəti nəzərə alınır. Müsabiqədə iştirak etmək üçün alimin il ərzində SCOPUS bazasına daxil olan jurnallarda ən azı 5 məqaləsi dərc olunmalıdır.

## BDU əməkdaşları III doza (buster) vaksinasiya olunublar

***Bakı Dövlət Universitetinin kollektivi Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq könüllü şəkildə peyvəndlənmə prosesində iştirak ediblər.***



BDU-nun müraciəti əsasında Universitet ərazisində yerləşən 30 saylı şəhər poliklinikasında noyabrın 22-də Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) səyyar vaksinasiya məntəqəsi fəaliyyətə başlayıb.

İki doza peyvənd olunmasından 150 (yüz əlli) gün keçmiş əməkdaşlar III doza (buster) peyvəndlənmədə iştirak ediblər.

TƏBİB səyyar vaksinasiya məntəqəsində 2 qeydiyyat, 2 müayinə, 2 vaksinasiya otağı ən zəruri tibbi ləvazimat və müvafiq şəraitlə təmin olunub. Vaksinasiyanı TƏBİB-in peşəkar həkim briqadası həyata keçirib.

BDU əməkdaşları III doza peyvəndlənmə üçün məntəqəyə müraciət edib, könüllü şəkildə məntəqəyə gələrək xüsusi karantin rejiminin tələblərinə ciddi riayət etməklə vaksinasiya olunublar. Əməkdaşlar üçün bütün zəruri avadanlıq və şəraitlə, dezinfeksiyaedici məhlullarla təmin edilmiş gözləmə və istirahət otaqları yaradılıb.

Vaksinasiya prosesi iki gün davam edib.

## "44 günlük Zəfər salnaməsi" mövzusunda esse müsabiqəsinin nəticələri elan edilib

***Bakı Dövlət Universiteti tələbələri arasında 8 Noyabr - Zəfər Günü münasibətilə elan olunmuş "44 günlük Zəfər salnaməsi" mövzusunda esse müsabiqəsinin nəticələri elan edilib.***

Müsabiqəyə Azərbaycan, rus və ingilis dillərində 106 esse təqdim edilib. BDU-nun Jurnalistika fakültəsinin IV kurs tələbəsi Rəşad İmanov birinci, Filologiya fakültəsinin IV kurs tələbəsi Vüsalə Əhmədova ikinci, Sosial elmlər və psixologiya fakültəsinin II kurs tələbəsi Elvin Babanlı isə üçüncü yerə layiq görülüb.

Müsabiqədə yalnız BDU-nun tələbə və magistrantları iştirak ediblər. Təqdim olunan esselər Müsabiqə Komissiyası tərəfindən qiymətləndirilib. Qaliblərə diplom və pul mükafatı veriləcək. Qalib elan edilmiş esselər BDU-nun rəsmi saytı, sosial media hesabları və "Bakı Universiteti" qəzetində dərc olunacaq.



# Filippin Respublikasının Azərbaycandakı səfiri BDU-da olub

***Noyabrın 26-da Filippin Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Maria Elena Palo Alqabre Bakı Dövlət Universitetində olub.***



Qonaqları salamlayan Universitetin rektoru Elçin Babayev Azərbaycan və Filippin Respublikaları arasındakı mövcud ikitərəfli əlaqələrdən bəhs edib. Rektor BDU ilə Filippin ali məktəbləri arasında ikitərəfli əlaqələrin önəmini diqqətinə çatdırıb, Filippin Universiteti, Ataneo Manila Universiteti, Santo Tomas Universiteti və digər ali məktəblər ilə hüquq, iqtisadiyyat, mühəndislik, internet texnologiyaları və digər istiqamətlər üzrə əməkdaşlıq əlaqələri və görülə biləcək işlər barəsində məlumat verib.

BDU rəhbərliyinə təşəkkürünü bildirən səfir Maria Elena Palo Alqabre qarşılıqlı münasibətlərin daha yüksək səviyyəyə qaldırılması, Filippin ali məktəbləri ilə BDU-nun daha sıx və səmərəli, qarşılıqlı faydalı əlaqələr qurması üçün səfirliyin bütün zəruri tədbirləri görəcəyini vurğulayıb.

Görüşdə tələbə-müəllim mübadiləsi, Filippində fəaliyyət göstərən elmi-tədqiqat institutları ilə birgə laboratoriyaların təşkili, BDU ilə Filippin universitetləri arasında müştərək konfrans və simpoziumların keçirilməsi, tədqiqatların aparılması, təqaüd və təcrübə proqramları, təlim və layihələr, ikili diplomların verilməsi üzrə əməkdaşlıq ətrafında fikir mübadiləsi aparılıb, gələcək perspektivlər müzakirə olunub.

# Çexiya Respublikasının səfiri ilə görüş keçirilib

***Noyabrın 26-da Çexiya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Milan Ekert və səfir müavini Daniel Putik Bakı Dövlət Universitetində olub.***

Qonaqları salamlayan Universitetin rektoru Elçin Babayev Azərbaycan və Çexiya Respublikaları arasındakı mövcud ikitərəfli əlaqələrə bəhs edib. Rektor BDU ilə Çexiya ali məktəbləri arasında ikitərəfli əlaqələrin önəmini diqqətə çatdırıb, Çexiyanın Karlov Universiteti ilə Əməkdaşlıq Protokolu çərçivəsində görülən işlər barəsində məlumat verib. Qeyd edib ki, BDU-da tədrisin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması və Universitetin beynəlxalq rəqabətliliyinin artırılmasına xüsusi diqqət yetirilir.

BDU rəhbərliyinə təşəkkürünü bildirən səfir Milan Ekert təklifləri müsbət dəyərləndirib, qarşılıqlı münasibətlərin daha yüksək səviyyəyə qaldırılması, Çexiya ali məktəbləri ilə BDU-nun daha sıx və səmərəli, qarşılıqlı faydalı əlaqələr qurması üçün səfirliyin bütün zəruri tədbirləri görəcəyini vurğulayıb.

Görüşdə tələbə-müəllim mübadiləsi, Çexiyada fəaliyyət göstərən elmi-tədqiqat institutları ilə birgə laboratoriyaların təşkili, BDU-da Çexiya Mərkəzinin yaradılması, müştərək konfrans və simpoziumların keçirilməsi, tədqiqatların aparılması, təlim və layihələr, gələcək perspektivlər müzakirə olunub.

# Tələbələrin ifasında "Qarabağ Azərbaycandır!" tamaşasının premyerası olub





***Noyabrın 26-da Bakı Dövlət Universitetində Mədəniyyət-Yaradıcılıq Mərkəzində quruluş verilmiş, tələbələrin ifasında "Qarabağ Azərbaycandır!" tamaşasının premyerası olub.***

Tamaşa başlamazdan əvvəl mərkəzin rəsm dərnəyinin üzvü olan tələbələrin hazırladığı, 44 günlük Vətən müharibəsinə həsr olunmuş sərgiyə baxış keçirilib.

Sonra BDU-nun Akt zalında tamaşanın quruluşçu rejissoru, BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin əməkdaşı Vahid Oruc çıxış edərək belə bir tamaşanın ali məktəblər arasında ilk dəfə BDU-da səhnələşdirildiyini deyib, aktyorların BDU-nun yaradıcı tələbələri olduğuna qeyd edib.

Daha sonra "Qarabağ Azərbaycandır" tamaşası göstərilib. Tarixi zəfərə həsr olunan tamaşanın əsas ideyası Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun göstərdiyi qəhrəmanlığı, qalib Azərbaycanın tarixində əbədi qalacaq zəfərə doğru gedən çətin və şərəfli yolu əks etdirməkdir. Azərbaycan əsgərinin Vətən uğrunda döyüşə atılması, vətənə olan əvəzedilməz sevgisinin tərənnümüdür. Tamaşada Vətən müharibəsindən fraqmentlər səhnələşdirilib. Vətənpərvərlik ruhunda yetişmiş gəncliyin müharibə dövründə yaşadığı hadisələr canlandırılıb.

Tamaşa anşlaqla qarşılanıb.

Qeyd edək ki, BDU tələbələrinin oynadığı "Qarabağ Azərbaycandır!" tamaşasının ölkəmizin digər ali təhsil müəssisələrinin səhnəsində də göstərilməsi nəzərdə tutulur.

# "Tələbə Gənclər Təşkilatı qazandırır" adlı tədbir keçirilib

***Noyabrın 18-də Fizika və Kimya fakültələrinin Tələbə Gənclər Təşkilatlarının (TGT) təşəbbüsü ilə 17 noyabr - Beynəlxalq Tələbə Günü münasibətilə "Tələbə Gənclər Təşkilatı qazandırır" adlı tədbir keçirilib.***

Tədbirin moderatoru Kimya fakültəsinin 1-ci kurs tələbəsi Mehriban Ağabəyli Beynəlxalq Tələbə gününün tarixi ilə bağlı ətraflı məlumat verib. Kimya fakültəsinin TGT sədri Əli Qədirli çıxışında Tələbə Gənclər Təşkilatının tələbələrin özünü inkişafına olan təsirindən və təşkilatın strukturundan bəhs edib. Daha sonra Fizika fakültəsi TGT sədri Təranə Məmmədova BDU-da tələbə təşkilatları və könüllülük fəaliyyətinin çoxşaxəli tədbirlərindən bəhs edib, tələbə gənclərin ölkəmizin ictimai həyatındakı roluna diqqət çəkib.

# Beynəlxalq Tolerantlıq Günü

***Noyabrın 16-da Filologiya fakültəsində Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə 16 noyabr - Beynəlxalq Tolerantlıq Günü ilə bağlı onlayn tədbir keçirilib. Tədbirdə fakültənin I kurs tələbəsi Fəridə Süleymanova çıxış edərək tarixən ölkəmizdə tolerantlıq dəyərlərinin olduğunu qeyd edib, xalqımızın həyat tərzinə çevrilən bu dəyərlərin əhəmiyyətindən bəhs edib.***



Sonra fakültənin I kurs tələbəsi Fatimə Nağızadə ölkəmizin dünyada tolerantlıq və multikulturalizm mərkəzi kimi tanındığını qeyd edərək, bir çox millətlərin nümayəndələrinin Azərbaycanda sülh və əmin-amanlıq şəraitində yaşadıqlarını qeyd edib. Filologiya fakültəsinin TGT sədr müavini Elnur Ağayev bu günün əhəmiyyəti, tarixi barədə tədbir iştirakçılarına məlumat verib.

Tədbir diskussiya şəklində davam etdirilib.

# İki universitet tələbələri arasında Zəfər Gününə həsr olunmuş bilik yarışı

***Noyabrın 16-da Bakı Dövlət Universiteti (BDU) və Mingəçevir Dövlət Universitetinin (MDU) Tələbə Gənclər təşkilatlarının birgə təşkilatçılığı ilə Qarabağ Zəfərinin birinci ildönümü münasibətilə tələbələr arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə onlayn bilik yarışı keçirilib. Yarışda hər biri 6 tələbədən ibarət 8 komanda mübarizə aparıb. Komandalardan altısı BDU-nu, ikisi isə MDU-nu təmsil edib.***

Müxtəlif sahələrə aid məntiqi və dünyagörüşü xarakterli suallarla əhatə olunan oyun zamanı 57 xalla ən yaxşı nəticə göstərən BDU-nun "1984" adlı komandası yarışın qalibi olub.

Qeyd edək ki, Vətən müharibəsində qazanılan tarixi Zəfərin birinci ildönümü münasibətilə tərəfdaş universitetlər arasında müxtəlif formatda tədbirlər keçirilib.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Allahverdi Məmmədli, Cahangir Məmmədli, Samir Mirzəyev

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.11.2021

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08